QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 159 (6359) 4 sentyabr 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Ölkəmizdə sənaye parklarının yaradılması istehsalın genişləndirilməsi baxımından çox əhəmiyyətlidir



## Birinci vitse-prezident Mehriban Əliyeva Tokio 2020 Yay Paralimpiya Oyunlarında 3-cü qızıl medalını qazanan idmançımızı təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyeva Tokio 2020 Yay Paralimpiya Oyunlarında üçüncü qızıl medalını qazanan azərbaycanlı idmançı Raman Salehi təbrik edib. Trend-in məlumatına görə, Birinci vitse-prezident bununla bağlı "İnstagram" hesabında paylaşım edib. Paylaşımda deyilir:

""Tokio-2020" Yay Paralimpiya Oyunlarında Azərbaycanın qızıl medallarının sayı 12-yə çatdı! Paralimpiyaçımız Raman Salehi 3-cü medalını qazanması münasibətilə təbrik edirəm! Azərbaycanı Paralimpiadada layiqincə təmsil edən milli yığmamıza səmimi-qəlbdən təşəkkür edir, bütün idmançılarımıza yeni-yeni nailiyyətlər və qələbələr arzulayıram!".

Bax 7 DİQQƏT:

## "Ali təhsil haqqında qanun"da hansı dəyişikliklər olacaq?



"Ötən sessiyadan Milli Məclisin elm və təhsil komitəsində "Ali təhsil haqqında qanun" layihəsi hazırlandı.

## İntihar halları - günahkar ailələrdir?



Bax 2

## Böyük Qayıdışın ədəbi və əbədi təntənəsi

Bax11



Azərbaycan Respublikasının Prezidenti, Qalib Ali Baş Komandan kimi İlham Əliyevin qədim Azərbaycan torpağı olan Qarabağı erməni işğalından azad etməsi ölkəmizin çoxəsrlik tarixinin misilsiz və nadir tarixi hadisəsidir.

## "Reket jurnalistika" ilə məşğul olanların sonu yaxınlaşır



"KİV-dən reketlik məqsədilə istifadə edənlərə qarşı uzun müddət ərzində mübarizə aparılmasına baxmayaraq, təəssüf...

## Vaksin növbələri yoluxmaya yol açır?



Bax13

## "Rus sülhməramlıları boşluqlara və məsuliyyətsizliyə yol verirlər"

Bax12



## "Azərbaycan Fransa mətbuatında"

Bax11




## Zatulin yenidən ermənilərə minnətçi düşüb

Bax13



Soçidəki Rusiya erməniləri birliyinin keçirdiyi görüşdə İrəvanda Lazarev klubunun qurucusu və lideri Konstantin...

## Revanşistlərin puç olan Şuşa xəyalı



44 günlük müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi.

Bax 15

## Zaxarova: "Türkiyə-Ermənistan münasibətləri sabitliyin qorunmasına kömək edəcək"



Bax 7

## "Xaricdəki müxalifətin ölkəmizlə bağlı xoşagəlməz planları baş tutmayacaq"



Bax 13

## "Barselona"nın futbolçusu "Beşiktaş"a keçib



Bax 16

# Ölkəmizdə sənaye parklarının yaradılması istehsalın genişləndirilməsi baxımından çox əhəmiyyətlidir

## *Prezident İlham Əliyev sentyabrın 3-də Sumqayıt şəhərinə səfər edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Sumqayıt şəhərində səfərdə olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.***



Sentyabrın 3-də Sumqayıt Kimya Sənaye Parkında "Azmonbat" Məhdud Məsuliyyətli Cəmiyyətinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizdə yaradılan sənaye parkları barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, ölkəmizdə sənaye parklarının yaradılması istehsalın genişləndirilməsi, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından çox əhəmiyyətlidir. Hazırda Azərbaycanda 5 sənaye parkı fəaliyyət göstərir. Dövlətimizin başçısının bu ilin mayında imzaladığı Fərmanla yaradılan Ağdam Sənaye Parkı isə sayca 6-cıdır.



Cənubi Qafqazın ən böyük, Azərbaycanın isə ilk sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkında 5500-dək insan daimi işlə təmin edilib. Parkda 24 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və onlardan 17-si istehsala başlayıb. Növbəti mərhələdə daha 7 rezidentin fəaliyyətə başlaması nəzərdə tutulur. Sənaye Parkında məhsul istehsalı və ixrac istiqamətində müsbət dinamika davam edir. Belə ki, 2021-ci ilin birinci yarısında ötən ilin müvafiq dövrü ilə müqayisədə 49 faiz daha çox məhsul istehsal edilib və 47 faiz daha çox ixrac həyata keçirilib.




Qeyd edək ki, Azərbaycanda sənayeləşmə prosesinin ardıcıl davam etdirilməsi, həmçinin qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindəndir. Dünyada pandemiya və iqtisadi-maliyyə problemlərinə baxmayaraq, ölkəmizdə bu istiqamətdə çox böyük işlər görülür. İqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi önəm verilir, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi üçün sistemli tədbirlər həyata keçirilir.

Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkəmizdə daxili tələbatın ödənilməsində yerli məhsulların payını əhəmiyyətli dərəcədə artıran və ixrac imkanlarımızı genişləndirən yüzlərlə müasir sənaye müəssisəsi, yeni istehsal sahələri yaradılır. Sumqayıt Kimya Sənaye Parkında yaradılan "Azmonbat" Məhdud Məsuliyyətli Cəmiyyəti də bu müəssisələrdən biridir. Müəssisə Parkda fəaliyyətə başlayan 17-ci rezidentdir. "Azmonbat"da istifadə müddəti bitmiş qurğuşun turşulu akkumulyator batareyalarının utilizasiyası aparılacaq, nəticədə propilen və yüksək sıxlıqlı polietilen, qurğuşun külçə, qurğuşunlu aktiv kütlə və ammonium sulfat məhlulu əldə olunacaq. Müəssisədə bir sıra ölkələrin qabaqcıl texnologiyalarından istifadə edilir. 100 nəfərin daimi işlə təmin olunduğu müəssisədə istehsal edilən məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, Türkiyə, Bolqarıstan və MDB ölkələrinə ixrac ediləcək. Prezident İlham Əliyev müəssisəni işə saldı.

Məlumat verildi ki, müəssisə ildə 30 min ton akkumulyator utilizasiya etmək gücünə malikdir. Bu, orta hesabla 800 min ədəd akkumulyator deməkdir ki, ondan da 15 min ton qurğuşun və 4,5 min ton gübrə almaq mümkündür. İstehsal prosesi ətraf mühitə zərər vurmadan, ekoloji standartlara tam cavab verir. İstifadə müddəti bitmiş qurğuşun turşulu akkumulyator batareyalarının utilizasiyasının təşkili həm də xüsusi əhəmiyyətli ekoloji layihədir.

**Ardı Səh. 3**

## *Rəsmi xronika*

Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

* * *

"Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 dekabr tarixli 400 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması mexanizminin təkmilləşdirilməsi və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 158-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Ölkəmizdə sənaye parklarının yaradılması istehsalın genişləndirilməsi baxımından çox əhəmiyyətlidir

*Prezident İlham Əliyev sentyabrın 3-də Sumqayıt şəhərinə səfər edib*





**Əvvəli-Səh-2**

"Azmonbat" MMC sənaye parkında tətbiq edilən vergi və gömrük güzəştlərindən yararlanaraq, indiyədək xərclərinə 1 milyon manat məbləğində qənaət edib. Sentyabrın 3-də Sumqayıt Məhkəmə Kompleksinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Ədliyyə naziri Fikrət Məmmədov kompleksdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verdi.

Qeyd edək ki, ölkəmizdə digər sahələrdə olduğu kimi, məhkəmə sistemində də islahatlar uğurla davam etdirilir. Prezident İlham Əliyevin 2019-cu ildə imzaladığı Fərman bu sahədə mühüm "yol xəritəsi" olmaqla onun icrası ilə bağlı kompleks qanunvericilik və praktiki tədbirlər görülür. Yeni regional inzibati və kommersiya məhkəmələri təsis edilib, vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün işlək mexanizmlər yaradılıb, məhkəmələrin və hakimlərin təminatı gücləndirilib. Bu sahədə infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlər çərçivəsində yeni məhkəmə bina və komplekslərinin inşası, onların ən müasir İKT qurğuları ilə təchizi xüsusi yer tutur. Sumqayıt Məhkəmə Kompleksinin inşası da bu istiqamətində icra olunan layihələrdən biridir. Bu, respublikamızda inşa olunan sayca dördüncü məhkəmə kompleksidir.



Kompleks Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində inşa olunub. Konseptual baxımdan yeni olan, öz funksionallığı ilə fərqlənən müasir Məhkəmə Kompleksi altı məhkəməni, o cümlədən Sumqayıt apellyasiya, inzibati, kommersiya və ağır cinayətlər, Sumqayıt şəhər, eləcə də müvəqqəti olaraq Qubadlı rayon məhkəmələrini əhatə edir. "Bir qapı" prinsipi ilə fəaliyyət göstərəcək məhkəmə kompleksi ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə, vətəndaşların müraciət imkanlarının asanlaşdırılmasına xidmət edəcək.

Məhkəmə zallarında proseslərə "Elektron məhkəmə" informasiya sistemi və digər müasir İKT-lərin tətbiqi ilə daha keyfiyyətli baxılması və şəffaflığın təmin edilməsi üçün "Femida" sistemi quraşdırılıb. Burada 50-dək hakim, ümumilikdə isə 240 işçi fəaliyyət göstərəcək. Sumqayıt Məhkəmə Kompleksində yaradılmış müasir şərait təxminən 1 milyon 460 min əhaliyə yüksək səviyyədə məhkəmə xidmətləri göstərməyə imkan verəcək.

Prezident İlham Əliyevə ədliyyə və məhkəmə sahəsində tətbiq olunan növbəti rəqəmsal innovasiyalar barədə də məlumat verildi, bununla bağlı videoçarx nümayiş etdirildi.

Bildirildi ki, dövlətimizin başçısının sosial ədalətə əsaslanan islahatlarına, eləcə də birinci xanım Mehriban Əliyevanın inklüziv cəmiyyətin inkişafı üzrə təşəbbüslərinə uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə ardıcıl tədbirlər görülür. Bütün bu işlər vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılmasına, onlara yüksəkkeyfiyyətli hüquqi xidmətlərin göstərilməsinə, şəffaflığın artırılmasına, bütövlükdə məhkəmə hakimiyyətinə ictimai etimadın yüksəldilməsinə yönəlib.

Sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən yeni inşa olunan 1100 şagird yerlik Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə də tanış olub.





Ardı Səh. 4

# Ölkəmizdə sənaye parklarının yaradılması istehsalın genişləndirilməsi baxımından çox əhəmiyyətlidir

## *Prezident İlham Əliyev sentyabrın 3-də Sumqayıt şəhərinə səfər edib*









**Əvvəli-Səh-3**

AZƏRTAC xəbər verir ki, Sumqayıt şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov məktəbdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, təhsil müəssisəsində 42 sinif otağı, fənn kabinələri, laboratoriyalar, əmək və hərbi təlim otaqları, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

Qeyd edək ki, son illərdə dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsində aparılan islahatların uğurlu nəticələrindən biri də bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsidir. Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə də yaradılan şərait Azərbaycanda təhsil sahəsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının əyani göstəricisidir. Paytaxtla yanaşı, digər şəhərlər də yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması ölkəmizdə təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində aparılan işlərin tərkib hissəsidir. Bütün bu işlər həm də Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısının olduğunu göstərir. Bu da təsadüfi deyil. Çünki Azərbaycan dövlətinin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsi, gənc nəslin bilikli və savadlı, yüksək intellektual potensiala malik yetişdirilməsidir.

Sentyabrın 3-də Sumqayıt şəhərində güzəştli mənzil layihəsi çərçivəsində növbəti yaşayış kompleksinin təməli qoyulub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib. Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlətimizin başçısına yeni layihə barədə məlumat verdi.

Bildirildi ki, Sumqayıt şəhərində növbəti güzəştli mənzil layihəsi 2 hektar ərazini əhatə edir. Burada doqquz, on iki və on altı mərtəbəli 11 bina inşa olunacaq. Mənzillərin ümumi sayı isə 466-dır. Onlar studio tipli, 2, 3 və 4 otaqlı olacaq. Ərazidə, həmçinin 90 yerlik uşaq bağçası da inşa ediləcək.

Diqqətə çatdırıldı ki, Mənzil İnşaatı Dövlət Agentliyinin regionda inşa olunmuş ilk layihəsi də Sumqayıt şəhərindədir. Vətəndaşlara güzəştli şərtlərlə təklif edilən bütün mənzillər tam təmirli olacaq. Mənzillər, həmçinin mətbəx mebeli, kombi isitmə sistemi, su, qaz və elektrik sayğacı ilə təmin ediləcək. Mənzillərin satışı həm güzəştli ipoteka kreditindən istifadə etməklə, həm də öz vəsaiti hesabına ödəniş üsulu ilə aparılacaq. Dövlətimizin başçısı yeni yaşayış kompleksinin təməlini qoydu.

Qeyd edək ki, hazırda dünyada baş verən iqtisadi böhran fonunda ölkəmizdə bu layihənin icrası Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial məsələlərinin həllinə yüksək dərəcədə diqqət, qayğı və həssaslıqla yanaşmasının növbəti təzahürüdür. Bu, bir daha sübut edir ki, Azərbaycan vətəndaşının sosial məsələlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayanır. Ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən müasir memarlıq üslubunda çoxmənzilli yaşayış binalarının tikintisini təmin etmək baxımından bu layihə əhəmiyyəti ilə seçilir.

Həmin gün Enerjisistemin Reabilitasiya Proqramı çərçivəsində inşa olunan "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Son illərdə Azərbaycanda enerjisistemin maddi-texniki bazasının möhkəmləndirilməsi, ölkəmizin enerji potensialının daha da artırılması, yeni elektrik stansiyaları və yarımstansiyaların inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində çox mühüm layihələr icra olunub. Dövlətimizin başçısının tapşırığına əsasən 2018-ci ilin sonundan Enerjisistemin Reabilitasiya Proqramının qəbul edilərək icrasına başlanılması bu istiqamətdə həyata keçirilən işlər arasında xüsusi əhəmiyyəti ilə seçilir. Belə ki, bu Proqramın icrasına vaxtında başlanaraq təcili işlər görülməsəydi 2019-cu və 2020-ci illərin yayında artan tələbatın, həmçinin Kür və Xəzərdə su səviyyəsinin kəskin aşağı düşməsinin fonunda enerjisistemdə problemlər yarana bilərdi. Ümumiyyətlə, proqram çərçivəsində 12 elektrik stansiyasında və 23 yarımstansiyada yenidənqurma, təmir və bərpa işləri həyata keçirilib.

Son illərdə Xəzər dənizində suyun səviyyəsinin 1,7 metrə qədər aşağı düşməsi "Sumqayıt" Elektrik Stansiyasının soyutma suyunun götürülməsində ciddi problem yaratmaqla yanaşı, stansiyanın avadanlıqlarının da tədricən sıradan çıxmasına səbəb olmuşdu. Yaranmış vəziyyətlə, xüsusilə dənizdə su səviyyəsinin düşməsi ilə əlaqədar il ərzində bir neçə dəfə qəza açılmaları baş vermişdi.

Reabilitasiya Proqramı çərçivəsində "Sumqayıt" Elektrik Stansiyasında əsas avadanlıqlar, generatorlar və digər qurğular əsaslı təmir olunub. Bununla yanaşı, stansiyanın mövcud su nasos stansiyası da əsaslı şəkildə yenidən qurulub. Aparılan yenidənqurma və əsaslı təmir işləri stansiyanın etibarlı və səmərəli fəaliyyətinə müsbət təsir göstərib. Belə ki, elektrik enerjisinin istehsalına sərf olunan şərti yanacağın həcminin azalması nəticəsində ildə 10 min ton yanacağa qənaət ediləcək. Stansiyanın əsaslı təmirdən sonra yük artımı 20 meqavat olub. Dövlətimizin başçısı "Sumqayıt" Elektrik Stansiyasının yeni estakada nasos stansiyasını işə saldı.

Qeyd edək ki, Xəzər dənizində suyun səviyyəsinin düşmə prosesinin hələ də davam etməsi və stansiyanın avadanlıqlarının uzunmüddətli istismarı nəzərə alınmaqla, dayanıqlı və etibarlı iş rejiminə nail olmaq məqsədilə təxirəsalınmaz irimiqyaslı işlərə başlanılıb. Belə ki, dənizin içərisinə doğru, 5 metr dərinlikdən soyuq suyun götürülməsinə imkan verən 750 metr məsafədə estakada, həmçinin yeni su nasos stansiyası tikilib. Bununla da stansiyanın soyuducu su təchizatının etibarlılığı təmin edilib və ən əsası stansiyanın fəaliyyətinin dayanmasının qarşısı alınıb. Yeni estakada üzərində tikilən və elektrik stansiyasını xüsusi üsulla soyuq su ilə təmin edən yeni nasosxana istilik energetikası sahəsində ilk təcrübə sayılır.

# YAP İCAPP Daimi Komitəsinin iclasında təmsil olunub

## İclasda Baş nazirin müavini, YAP Sədrinin müavini Əli Əhmədov iştirak edib

***Sentyabrın 3-də Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) Daimi Komitəsinin videoformatda 36-cı iclası keçirilib. İclasda Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini Əli Əhmədov iştirak edib.***



İclasda Daimi Komitənin 2021-ci ilin aprel ayında keçirilən 35-ci iclasından ötən dövrdə İCAPP-ın fəaliyyəti qiymətləndirilib, qurumun 2021-ci ilin növbəti mərhələsi və 2022-ci il üçün tədbirlər planı müzakirə olunub. İclasda həmçinin, İCAPP-ın BMT ilə əməkdaşlığının genişləndirilməsi imkanları barədə təkliflər səsləndirilib.

YAP Sədrinin müavini Əli Əhmədov tədbirdə çıxış edib. O, bildirib ki, 44 günlük müharibədə Azərbaycan şanlı Zəfəri ilə ərazi bütövlüyünü bərpa edib, bölgədə yeni reallıq formalaşdırıb. Kifayət qədər aktual olan təhlükəsizlik məsələləri öz növbəsində siyasi partiyalar arasındakı münasibətlərə də təsir edir. Bu baxımdan, Yeni Azərbaycan Partiyası İCAPP-ın "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusunda xüsusi konfransının keçirilməsi təklifi ilə çıxış edib. Lakin dünyadakı mövcud pandemiya şəraiti ilə əlaqədar İCAPP-ın bir çox tədbirlərinin gələn ilədək təxirə salınmasını nəzərə alaraq, YAP da təklif etdiyi xüsusi konfransın 2022-ci ilin payızınadək təxirə salınmasını məqsədəuyğun hesab edir.

Qeyd edək ki, 2009-cu ildən İCAPP Daimi Komitəsinin üzvü olan Yeni Azərbaycan Partiyası qurumun fəaliyyətində aktiv iştirak edir. İndiyədək YAP İCAPP-ın bir sıra tədbirlərinə uğurla ev sahibliyi edib.

# YAP məhz zamanın tələbi, xalqın istəyi ilə yaradılıb!

## YAP Ağcabədi rayon təşkilatının X hesabat konfransı keçirilib










***Sentyabrın 3-də Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Əvvəlcə müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, müstəqilliyimizin ilk illərində Azərbaycanın düçar olduğu çətinlikləri aradan qaldırmaq üçün xalqın mübarizlik əzimini yüksəldə bilən, onu öz ardınca aparmağa qadir olan bir siyasi partiyanın fəaliyyətinə ciddi ehtiyac yaranmışdı. YAP məhz zamanın tələbi, xalqın istəyi ilə yaradıldı. Təşkilat sədri qeyd edib ki, son 18 ildə ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin həyata keçirdiyi təkmil islahatlar, gələcəyə hesablanmış siyasət nəticəsində Azərbaycan uğurlarımızın zirvəsində dayanan tarixi Zəfərə imza atdı.







R.Əhmədov vurğulayıb ki, hazırda YAP Ağcabədi rayon təşkilatı 92 ərazi ilk partiya təşkilatında 16150 üzvü birləşdirir. Onlardan 7551 nəfəri qadınlar, 6761 nəfəri isə gənclərdir.



Sonra Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının Nəzarət Təftiş Qrupunun sədri Elsevər İsmayılovun hesabat məruzəsi dinlənilib.

Müzakirələr zamanı Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev, rayon təşkilatının Salmanbəyli ərazi ilk təşkilatının sədri Gülbikə Məmmədova, rayon təşkilatı Qadınlar Şurasının sədri Radə Qafarova, Vətən müharibəsi qazisi Elşad Heydərov rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyətinə münasibətlərini bildiriblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Yeni Azərbaycan Partiyasının fəaliyyəti parlaq və qürurvericidir: "Tarixi nailiyyətimiz olan müstəqilliyimiz qorunur, Azərbaycan öz müstəqil siyasəti ilə davamlı uğurlara imza atır. Azərbaycanın beynəlxalq təşkilatların hesabatlarında ən islahatçı, sabit, təhlükəsiz, xoşbəxt ölkə kimi qərarlaşması düşünülmüş və məqsədyönlü siyasətin nəticəsidir. İnkişaf, tərəqqi, müasirləşmə həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilib. Dünyaya səs salan, Azərbaycanın adını tarixə qalib ölkə kimi yazan möhtəşəm Zəfərimiz əldə olunan uğurların zirvəsi, Heydər Əliyev siyasətinin təntənəsidir".

Yeni Azərbaycan Partiyasının təkmilləşməyə, yeniləşməyə açıq olduğunu, qəbul etdiyi hər bir qərarında dövlətin, xalqın gələcəyini düşündüyünü önə çəkərək VII Qurultayda qarşıya qoyulan vəzifələrdən danışan Ə.Tağıyev YAP Ağcabədi rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Ağcabədi rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# "Davamlı İnkişaf Məktəbi" layihəsi çərçivəsində Milli Debat Proqramının son təlimi keçirilib







*Sentyabrın 3-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Gənclər Birliyinin "Davamlı İnkişaf Məktəbi" layihəsi çərçivəsində Milli Debat Proqramının son təlimi keçirilib.*



Təlimdə çıxış edən YAP Gənclər Birliyinin üzvü, layihənin koordinatoru Ülviyyə Axundova ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunan "Davamlı İnkişaf Məktəbi"nin üzvlərini salamlayaraq keçirilən təlimin əsas mahiyyətindən danışıb. Bildirib ki, gənclər 2 ay ərzində dövlət qurumlarının rəhbər şəxsləri, Milli Məclisin deputatları və peşəkar mütəxəssislər tərəfindən keçirilən görüşlərdə və təlimlərdə iştirak ediblər. Ü.Axundova layihənin iştirakçıların şəxsi inkişafı üçün önəmini vurğulayıb və qeyd edib debat proqramının əsasında iştirakçılar öz komandalarını və mövzularını müəyyən edərək təqdimat mərasiminə hazırlaşacaqlar. Təqdimat mərasimində iştirakçılar komandalar şəklində Azərbaycanın iqtisadi, sosial, aqrar, mədəni, təhsil, milli təhlükəsizlik və gənclər siyasəti istiqamətləri üzrə çıxışlar edəcəklər.

Daha sonra çıxış edən Milli Debat Proqramının təlimçisi Nərgiz Nəsibova bildirib ki, bu təlim iştirakçıların nitq mədəniyyətini inkişaf etdirmək, arqumentləşdirmə, əsaslandırma, araşdırma bacarıqlarını təkmilləşdirmək, onların qərarvermə proseslərində, ictimai aktuallıq daşıyan məsələlərdə fəallığını artırmaq məqsədi daşıyır. Vurğulanıb ki, iştirakçılar təlim müddətində düzgün nitqin qurulması, təqdimat mövzusunun araşdırılması, çıxışların hazırlanması üzrə bilik və bacarıqlar əldə ediblər.

Sonda iştirakçıları maraqlandıran suallar təlimçi koordinatorlar tərəfindən cavablandırılıb.

*Sentyabrın 3-də Yeni Azərbaycan Partiyası Bərdə rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib.*

# YAP Bərdə rayon təşkilatının XI hesabat konfransı keçirilib









Əvvəlcə müstəqil Azərbaycan dövlətinin memarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskayanın hesabat məruzəsi dinlənilib. Bildirib ki, bu gün YAP Azərbaycan cəmiyyətinin həm siyasi, həm iqtisadi, həm sosial, həm də mədəni həyatında uğurlu layihələrlə, həmçinin, ölkəmizin ictimai-siyasi həyatında həlledici rol oynayır. Qələbələr partiyası olan YAP zəngin və şərəfli inkişaf yoluna malikdir.



F.Şadlinskaya qeyd edib ki, YAP Bərdə rayon təşkilatının 148 ərazi ilk partiya təşkilatının sıralarında 11256 nəfər partiya üzvü var. Onlardan 4846 nəfəri qadınlar, 3586 nəfəri gənclərdir. Ötən konfransdan keçən müddət ərzində təşkilat sıralarına 675 nəfər qəbul olunub ki, onların 385 nəfərini qadınlar, 429 nəfərini isə gənclər təşkil edir.





Sonra YAP Bərdə rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Əsgər Əsayev hesabat məruzəsi ilə çıxış edib.





Müzakirələr zamanı çıxış edən Qarabağ Dirçəliş Fondu Müşahidə Şurasının üzvü, Milli Məclisin deputatı Fatma Yıldırım, Sosial Tədqiqatlar Mərkəzinin direktoru, Milli Məclisin deputatı Zahid Oruc, Bərdə Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Vahid Qarayev, YAP Bərdə rayon təşkilatı Gənclər Birliyinin sədri Elşən Məmmədov, rayon təşkilatının Şura üzvü Tofiqə Məmmədova hesabat dövründə görülən işlərdən bəhs ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Yeni Azərbaycan Partiyasının xalq, dövlət qarşısındakı böyük xidmətləri bu nəhəng təşkilatın cəmiyyətdəki mövqelərini getgedə daha da möhkəmləndirir, insanların bu partiyanın ideoloji-siyasi xəttinə dəstəyini gücləndirir. 29 il şərəfli yol keçən, bütün çətinliklərdən uğurla çıxan Yeni Azərbaycan Partiyasını qarşıdakı illərdə daha möhtəşəm nailiyyətlər gözləyir. Yeni Azərbaycan Partiyasının güc mənbəyi yaradıcısı olduğu ulu öndər Heydər Əliyevin zəngin irsi və son 18 ildə bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin təkmil islahatları, gələcəyə daha böyük inamla addımlamağa əsas verən inkişaf strategiyamızdır.

Dünyaya səs salan, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlını qürurlandıran Zəfərimizin yaratdığı reallıqların gerçəkləşməsində Yeni Azərbaycan Partiyasının rolundan bəhs edən Ə.Tağıyev YAP Bərdə rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Bərdə rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.



# “Ad mənsubiyyət hissinin formalaşmasında mühüm amildir”

Yeni dünyaya gələn körpəyə ad qoyulması şəxsiyyətin formalaşmasına və uşağın böyüdükdən sonra həyatına təsir edən mühüm amildir. Körpə doğulmazdan əvvəl valideynlərin tez-tez danışdıqları mövzulardan biri də ”ad”ı təyin etməkdir. Bu baxımdan valdeyinlərin övladlarına gözəl ad seçməsinin böyük əhəmiyyəti var. Çünki bir insanın adı ömrünün sonuna kimi onunla yoldaş olan, onun xarakter və şəxsiyyətinin formalaşmasına təsir edən ən mühüm atributlardan sayılır. Ad seçilməsi şəxsin öz əlində olmur. İnsana ad valideynləri tərəfindən verilir. Buna görə adı daşıyan şəxs böyüdükcə bu adla fəxr də edə, utana da bilər.

Mütəxəssislər adın mənasının uşağın şəxsiyyətinin formalaşmasına və sonrakı illərdə münasibət və davranışlarına təsir etdiyini, buna görə də valideynlərə ad verərkən diqqətli olmaları barədə xəbərdarlıq edirlər. Bəziləri körpələrinə baba və ya nənə adı verməyi üstün tutur, digərləri isə daha müasir bir adla razılaşırlar.

Ad, insanın cəmiyyətdə və sosial mühitdə tanınmasını fərqləndirən bir xüsusiyyət olaraq görülsə də, insanın şəxsiyyətinin inkişafı və mənsubiyyət hissində böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən ad verərkən nəzərə alınmalı olan bəzi məqamlar var.

Uşağın öz kimliyindən imtina edərək modernləşməsini istəyiriksə, ona uyğun olaraq da ad verə bilərik. Uşağın modernləşdirilməməsi və ənənəvi olaraq qalması lazım olduğunu söyləsək, buna uyğun olaraq ad verəcəyik.

Cəmiyyətimizdə yaxşı, mənalı adlarla yanaşı, mənasız adları olan, adları ilə müsbət və ya mənfi təsəvvür yaradan, öyünən və ya xəcalət hissi keçirən insanlar var. İnsanın gün ərzində on dəfələrlə adı ilə çağırıldığını nəzərə alsaq, bunun əhəmiyyətini anlamaq çətin olmaz. Uşaqlara mənasız adların qoyulması, təbii ki, müəyyən yaşdan sonra elə uşaqların özünə böyük təsir göstərir, ona neqativ enerji ”bəxş edir”.

### ”Adınız Ruhunuzdur”

**Axirət dünyasına gələndə ruhdan soruşulur: ”Adın nədir, adına uyğun yaşamısanmı?”**

Bir ad valideynlərin uşağa verdiyi və uşağın həmişə daşıyacağı bir hədiyyədir. Adı ömrü boyu onunla qalır və sonra məzar daşına yazılır. Sərvət səni məzara qədər izləmir, amma adın gedir. Bu səbəbdən də ad seçmək çox diqqətlə düşünülməlidir. Uşağınızın adının yalnız müsbət mənaları olduğuna əmin olun.

### Uşağınızın həmişə qürur duyacağı bir ad istifadə edin, unutmayın ki, uşağınızın adı əbədi kimliyidir

Bu baxımdan uşaqlara ad qoyulmasında valideynlərin dünya görüşü, milli və mənəvi dəyərlərə bağlılığı mühüm rol oynayır.

**Bəs dinimizdə uşaqlara ad qoyulması ilə bağlı hansı tövsiyələr var?**

İslam dininə görə, gözəl ad uşaqda dəyər və şəxsiyyət hissi oyadır. Buna görə də Peyğəmbərimiz uşaqların pis adlarını dəyişdirərmiş. Dini dəyərlərimizə görə, yeni doğulan uşağa gözəl ad qoymaq valideynlərin üzərinə düşən vəzifələrdəndir. Uşağa qoyulan ad həm bu dünyada, həm də axirətdə keçərlidir. Məhəmməd Peyğəmbər uşaqlarla yanaşı, böyüklərin də adlarıyla maraqlanmış, xoşuna gəlməyən bəzi isimləri dəyişdirmişdir. Bununla yanaşı, uşaqlara qoyulacaq gözəl adlarla əlaqəli də məlumatlar vermişdir. Çünki hədisi-şərifdə ”Siz qiyamət günündə adlarınızla və atalarınızın adları ilə çağırılacaqsınız. Buna görə də gözəl adlar qoyun!” buyurulmuşdur.



İmam Musa Kazım buyurur: ”Atanın ilk yaxşılığı övladına gözəl ad qoymaqdır”.

Psixoloq Aytən Ələkbərova məsələ ilə bağlı fikirlərini bildirib. Onun sözlərinə görə, insanların həyatında adların mühüm rolu var.Bir adın daşıyıcısının ilkin olaraq özünün sosial və biolojik varlıq olmasına baxmayaraq şəxsiyyət kimi hiss etməsində əhəmiyyəti var. Əvvəllər bəzi insanlara verilən adlar ad kimi belə səslənmirdi. Bu insanın həyata və sosail həyata adabtasiyasına çox mənfi təsir göstərir. Birin insanın ruhunun varlığı onun sosial və biolojik varlığının olması deməkdir. Sosial varlıqda biz özümüzü təqdim etməkdən ötrü bu adları səsləndiririk. Bu adlar bəzən uğurlu nəticələrə gətirib çıxardır. Məsələn uşağa Cavanşir adı qoyulub, lakin buna baxmayaraq uşağımızda uğursuz addımlar olduqda şəxsiyyətə sosial mühit təsir edir ki, sənin adın Cavanşirdir sən adın kimi olmalısan. Bu isə şəxsdə çox ciddi təsirlərə səbəb olur. Uğur adını daşıyırsansa, mütləq uğurlu olmalısan kimi bir qayda yoxdur. Övladlarımıza ad seçən zaman çox dinamik düşüncəmiz olmalıdır. Yəni övladımıza ad qoyarkən kişik yaşlarından səslənərək birinci, ikinçi şəxsiyyət dövrünə keçdiyi zaman artıq yeniyetməlikdən sonra özünü təsdiq etməsi adı ilə bağlı düşüncələrdə özünü göstərə bilir.

Bu il Azərbaycanda uşaqlara ən çox qoyulan adlar bunlardır:

Belə ki, ötən müddət ərzində oğlan uşaqları arasında ən çox qoyulan ad Əli olub. Bu il ərzində bu ad 427 uşağa verilib. Bundan əlavə, doğumu qeydə alınmış körpələrdən oğlan cinsindən olanlardan 406 uşağa Yusif, 399 uşağa Uğur, 393 uşağa Hüseyn, 280 uşağa Məhəmməd, 262 uşağa Ömər, 247 uşağa Murad, 188 uşağa Raul, 184 uşağa Ayxan və 178 uşağa isə Tunar adı verilib.

Həmçinin cari ildə qızlar arasında Zəhra adı birinciliyi qoruyub. Bu il ərzində bu ad 466 uşağa verilib. Bundan əlavə, doğumu qeydə alınmış körpələrdən qız cinsi olanlardan 361 uşağa Zeynəb, 336 uşağa Aylin, 326 uşağa Məryəm, 325 uşağa Mələk, 308 uşağa Fatimə, 275 uşağa Nilay, 248 uşağa Nuray, 240 uşağa İnci və 211 uşağa isə Mədinə adı qoyulub. Beləliklə, bu il ərzində uşaqlar arasında ən çox qoyulan ad Əli və Zəhra olub.

*Qönçə Quliyeva*

---

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



Məzahir Pənahovun sədrliyi ilə 2021-ci il sentyabrın 3-də Mərkəzi Seçki Komissiyasının iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Komissiyanın 2021-ci il avqustun 19-da keçirilmiş iclasının protokolu təsdiq edilib.

Sonra Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi məsələsinə baxılıb. Komissiya üzvləri tərəfindən aparılan müzakirələr nəticəsində Mərkəzi Seçki Komissiyası ”Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun və Seçki Məcəlləsinin tələblərini əsas götürərək müvafiq dəyişikliklərin qəbul olunmasına qərar verib və bir sıra normativ xarakterli aktlar son dövrlərdə qanunvericilikdə edilmiş dəyişikliklərə uyğunlaşdırılıb. Kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılan iclasda cari məsələlərə də baxılıb.

## Zaxarova: ”Türkiyə-Ermənistan münasibətləri sabitliyin qorunmasına kömək edəcək”



Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Türkiyə və Ermənistan əlaqələrinin düzəlməsi üçün danışıqların vacib olduğunu bildirib. SİA-nın rus mətbuatına istinadən verdiyi xəbərə görə, Zaxarova Türkiyə ilə Ermənistan arasındakı əlaqələrin yaxşılaşdırılmasına kömək etməyə hazır olduqlarını qeyd edib. ”İki ölkə arasında münasibətlərin müsbətə doğru inkişaf etməsi ilə bağlı siqnallar gəlməkdədir. Biz hər şeyə hazırıq. İki qonşu ölkənin qarşılıqlı hörmət və maraqların izlənməsi əsasında yaxınlaşmasına təşviq etməliyik”, deyə Mariya Zaxarova bugünkü mətbuat konfransında deyib.

Zaxarova Türkiyə ilə Ermənistan arasında əlaqələrin qurulmasının xüsusilə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması kontekstində bölgədə sülhün, sabitliyin və firavanlığın bərqərar olmasına kömək edəcəyini vurğulayıb. Rusiya, Azərbaycan və Ermənistan liderləri 9 Noyabr 2020 və 11 Yanvar 2021 tarixlərində bəyanat imzalayıb.

Rusiyanın hər zaman Türkiyə ilə Ermənistan arasındakı münasibətlərin yaxşılaşmasının tərəfdarı olduğunu və bu prosesdə fəal rol oynadığını xatırladan Zaharova sözlərini belə davam etdirib: ”Keçmişdə müvafiq vasitəçilik səylərində bilavasitə iştirak etmişik. 2009-cu ildə Sürix protokollarının imzalanmasını dəstəklədik. Bu protokollar Ermənistanla Türkiyə arasındakı münasibətlərin qeyd-şərtsiz və tədricən yaxşılaşmasını nəzərdə tuturdu. Vasitəçilik aktiv və təsirli rol oynadı, bu da görüşün müsbət nəticələrinə səbəb oldu. Təəssüf ki, Rusiyanın vasitəçiliyi ilə əldə edilən təşəbbüslər bu ölkələr tərəfindən həyata keçirilmədi. Ancaq bu, hər bir ölkənin iradəsi idi”.

*Qönçə Quliyeva*

---

# DİQQƏT: "Ali təhsil haqqında qanun"da hansı dəyişikliklər olacaq?

***"Ötən sessiyadan Milli Məclisin elm və təhsil komitəsində "Ali təhsil haqqında qanun" layihəsi hazırlandı. Bu qanun layihəsi həm Təhsil Nazirliyi, həm Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, həm də bir sıra ali məktəblərin rektorları ilə müzakirə olundu və qanun layihəsində bir sıra dəyişikliklər edildi". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov deyib.***

Onun sözlərinə görə, ”Ali təhsil haqqında qanun”un qəbul edilməsi hazırki mərhələdə xüsusi önəm daşıyır: ”Çünki bu günə kimi belə bir qanun olmayıb. Ona görə də belə bir qanunun olması ölkəmizdə təhsilin inkişafına öz ciddi töhfəsini verəcək. Qanunun mahiyyəti universitetlərin idarə olunması, maliyyələşməsi, təhsilin pillələri, tələbə kreditləri, xaricdə təhsil, distant təhsil, ikili diplom və digər mühüm məsələlərlə bağlı müddəalar öz əksini tapıb.

Ümumiyyətlə bu gün xarici diplomların tanınması, distant təhsil alan tələbələrin diplomları ilə bağlı çətinliklər var. Eyni zamanda uzun müddətdir ki, Azərbaycanda tələbə kreditləri geniş müzakirə olunur. Təhsil pillələri ilə bağlı kankret məsələlər öz əksini tapır. Qanunda əksinisi tapan məsələlərdən biri də rektorlar şurasının yaradılmasıdır. İlk dəfədir ki, Azərbaycanda belə bir şura yaradılır. Bununla yanaşı qanunda elmi araşdırmalarla bağlı, universitetlərin fəaliyyəti ilə bağlı, ümumiyyətlə təhsilimizin gələcəyi ilə bağlı çox mühüm və vacib məsələlər sənəddə öz əksini tapıb. Ümid edirik ki, Milli Məclisin növbəti sessiyasında qanun layihəsinə baxılaraq qanun layihəsi qəbul olunacaq. Bununla da təhsildə yeni bir mərhələyə qədəm qoyulacaq”.



*Arzu Qurbanzadə*

# İntihar halları - gü



***Şiddət, güc və təzyiq tətbiq edərək insana fiziki və ya zehni zərər verən bir vəziyyətdir. Şiddət insanların bədəninə və ruh dünyalarına düzəldilməsi çətin yaralar verir. Son zamanlar çox yayılan məişət zorakılığı, şiddətə məruz qalan şəxsin psixi sağlamlığına mənfi təsir göstərir. Uşaqlıq dövründə ailədə emosional-fiziki zorakılığa məruz qalan uşaqların yetkinlik yaşlarında müxtəlif formalarda və dərəcələrdə zehni problemləri yaşaması qaçılmazdır. Son günlər ailədaxili münaqişələr səbəbi ilə ana və uşaq ölümlərinin sayı kəskin şəkildə artır. Bəs, buna səbəb nədir? Bu vəhşiliyin altında nələr yatır? Günahkar kimdir? Məsələ ilə bağlı SİA araşdırma aparıb.***

İnsanların ən özəl sahəsi və hər cür bəladan sonra sığınacaqları ən əhəmiyyətli liman olan təhlükəsiz ailə mühiti, şiddət səbəbi ilə insanın özünü təhlükəli hiss edən bir yerə çevrilir. Məişət zorakılığı hadisələri çox vaxt gizli qalır. Göründüyü kimi, "şəxsi həyat", "ər arvadını döyə də bilər və sevə də bilər" kimi ənənəvi fikirlər var.

Şiddət, istər fiziki, istər duyğusal, istərsə də cinsi, insanların bədənində və ruh dünyalarında bərpa olunması çətin yaralar verir. Bu səbəbdən də göz ardı edilməməli, inkar edilməməli və son dərəcə önəm verilməməli olan bir məsələdir. Məişət zorakılığı daha çox qadınlara və uşaqlara qarşı yönəlib, şiddətə haqq qazandıran isə əsasən kişilərdir. Fiziki və cinsi zorakılığın yüzdə 90-nı ailə üzvləri tərəfindən edilir.

## Məişət zorakılığı və statistika

Türk Ailə Araşdırma İnstitutu tərəfindən 1995-ci ildə edilən bir araşdırmaya görə, məişət zorakılığına məruz qalanların 80%-i heç bir şey edə bilməyəcəklərinə inanır. 2000 -ci ildə edilən bir araşdırmada, Türkiyənin şərqində və cənub-şərqində qadınların 50,8 %-i razılığı olmadan evləndiklərini ifadə ediblər.

Azərbaycanda 2010-cu ildə qəbul edilmiş məişət zorakılığı haqqında qanuna nəzər saldıqda məişət zorakılığının qarşısının alınması üçün polis və yerli icra orqanlarının qarşısına müəyyən öhdəliklərin qoyulduğunu görə bilərik. Qanunda məişət zorakılığı ilə üzləşmiş şəxslərin hara müraciət etməsi, ilkin olaraq hüquqi və psixoloji yardımların göstərilməsi, qadının sığınacağa göndərilməsi və sosial yönümlü yardımların göstərilməsi öz əksini tapsa da, bunları yerinə yetirmək üçün nə təlimatlandırılmış polis, psixoloq, sosial işçilər, ictimai vəkillər kimi mövcud insan resursları, nə də sığınacaqlar və müvəqqəti yaşayışla təmin edilmək üçün nəzərdə tutulan proqramlar mövcuddur. Məişət zorakılığı haqqında qanunda yuxarıdakı icra edilməli olan proses bu cür izah olunur: "7.0.1. zərurət olduqda zərər çəkmiş şəxsin dövlət vəsaiti hesabına dərhal tibbi yardımla, yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə təmin edilməsi, habelə onun barəsində psixoloji reabilitasiya kursunun aparılması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanına məlumat göndərmək". Qanunda proses öz əksini tapsa da, icra edilməsi labüd sayılmış aktlar və bu qanundan irəli gələn öhdəliklər həyata keçirilmir və bu işdə dövlətin səfərbərliyi müşahidə edilmir. Qanundan irəli gələrək yaradılmış qadın krizis mərkəzlərində işçilər çalışmır və bu yerlərin aktiv fəaliyyət göstərməsi üçün maddi yardım yönəltmə və digər islahatlar aparılmır. Buna görə də çox vaxt məktəb və ya maarif mərkəzlərində yaradılmış bu otaqlar yaranma məqsədləri üçün istifadə edilmir və ya bağlı saxlanılır.

Bioloji səbəblərə kişi hormonlarının təsiri, şizofreniya, paranoid şizofreniya kimi bəzi ruhi xəstəliklər və antisosial şəxsiyyət pozğunluğu kimi bəzi ruhi xəstəliklər daxildir. Reallıqdan uzaqlaşma, qısqanclıq və zərər görmə paranoyası ilə xarakterizə olunan şizofreniya da şiddətə səbəb ola bilər. Qəzəbi idarə etmənin də pozulduğu depressiya, məişət zorakılığının çox yayılmış bir səbəbidir. Zərər verməkdən zövq alan və bir az da olsun peşman olmayan münasibətlərlə irəliləyən "Psixopatik xarakter pozuqluğu" da şiddətin bioloji səbəblərindən biridir. Şizofreniya və depressiya müalicə edildikdə şiddətli davranış əhəmiyyətli dərəcədə azalır. Ancaq eyni müvəffəqiyyət antisosyal şəxsiyyətlər üçün sual altında deyil.

## Şiddət növləri

"Sən bacarıqsızsan, nə bilirsən"

"İşimi görürəm, evə pul gətirirəm, daha nə istəyirsən"

"İstəyirəm ki, bu gecə yanımda olasan"

"İşləyə bilməzsən"

"Pul yoxdur. Haradan tapırsan tap".

## Fiziki şiddət

Şəxsin əsas ehtiyaclarını rədd etmək, silah və ya bıçaqla yaralamaq, şapalaqlamaq, itələmək, döymək, yumruqlamaq, saçlarını çəkmək, qolunu sıxmaq kimi problemli davranışlar fiziki şiddət sahəsinə daxil edilir.

Duyğusal və şifahi şiddət

Alçaltmaq, söymək, təhdid etmək, tənqid etmək, qışqırmaq, sorğu-sual etmək, ələ salmaq, aşağılamaq, qayğı göstərməmək, günahlandırmaq kimi münasibətlər emosional şiddət nümunələridir. Xüsusilə, qadınların emosional ehtiyaclarını ödəməmək və qadınlara qayğı göstərməmək həm də emosional şiddətdir.

## Cinsi şiddət

İstəmədən cinsi əlaqəyə məcbur etmək, təcavüz etmək, digər insanlarla cinsi əlaqəyə məcbur etmək, cinsi təcavüz, namus və adət-ənənə səbəbiylə təzyiq göstərmək cinsi zorakılıq daxilindədir.

## İqtisadi Şiddət

Həyat yoldaşından pul almaq, istəmədiyi bir işlə məşğul etmək, onu pulsuz buraxmaq, istəsə də işə göndərməmək kimi iqtisadi şiddət vəziyyətləri var.

## Sosial əlaqələrin məhdudlaşdırılması

Dostlarla görüşməyi qadağan etmək, zorla evlənmək, gedəcək yerləri məhdudlaşdırmaq və ya qadağan etmək kimi sosial ünsiyyət ehtiyaclarını məhdudlaşdırmaq, şiddətdir və özünü daha çox emosional, şifahi və fiziki şiddətlə göstərir.

## Məişət zorakılığı və uşaqlar

"Mən günahkaram... anamı qoruya bilmədim ..."

"Bütün bunlar mənə görə olur"

"Mənim zəhləm gedir"

"Kömək edə bilmirəm ... çarəsizəm"

"Xahiş edirəm atamı və ya anamı mənə pisləmə... Mən tərəf tuta bilmərəm"

Bu daxili çıxışlar uşağın baş verənlərə görə özünü günahlandırmasının ifadəsidir, çox vaxt bunun fərqində deyil. Çox nadir hallarda uşaqların oxşar cümlələri ucadan söylədiyini görürük, lakin bu, bu travmatik təcrübələrin təsirinin uşaqlıqda, xüsusən də valideynlər arasında şiddət görən uşaqlarda mütləq baş verəcəyini və bu təsirlərin onları izləyəcəklərini dəyişdirmir. Uşağın beyni və zehni qabiliyyəti bu hadisələrin şahidi olmaq üçün kifayət qədər inkişaf etməmişdir.

Ailədəki uşaqlar şiddətdən çox təsirlənirlər. Ailədə zorakılığa şahid olan uşaq qorxusunu, qəzəbini, kədərini göstərməməyə meyillidir. Ailə üzvlərinin bu vəziyyəti və uşaqla hisslərini danışması vacibdir. Uşağa arxayın olmaq lazımdır.

Zorakılığın şahidi olan uşaq özünü zorakılıqda günahlandıra və özünü məsuliyyətə cəlb edə bilər. Bu prosesdə valideynlərin bu vəziyyətin uşaqla əlaqəli olmadığını açıq və birmənalı şəkildə söyləmələri vacibdir. Bundan əlavə, uşaq anasını və ya atasını günahlandıra bilər. Bu vəziyyətdə uşağı mühakimə, tənqid və müdafiə etmədən dinləmək lazımdır.

Ailədə şiddətə şahid olan uşaq şiddət göstərməyə başlaya bilər. Məsələn, məktəbdə dostunuza vurmaq və ya yoldaşınızı incitmək kimi problemli davranışlar çox yayılıb. Şiddətin yanlış bir davranış olduğu ona izah edilməli və hisslərin ifadə edilmə yolları və bu sıx duyğu ilə necə mübarizə aparılması ilə bağlı təlimat vermək vacibdir. Belə bir vəziyyətdə peşəkar dəstək axtarılmalıdır.

Ailə uşağa daşıya bilmədiyi yükləri verməməlidir. Şiddətə məruz qalan valideyn uşağından kömək istəyir, uşağın tərəfini tutmasını istəyir və ya bunu nəzərdə tutur, uşaq vasitəsilə həyat yoldaşı ilə ünsiyyət qurmağa çalışır, uşağa aralarında olanları danışır.



Məsələ ilə bağlı **sosioloq Əhməd Qəşəmoğlu** fikirlərini bu cür ifadə edib: "İndi bu cür hallar çox təəssüf ki, çoxalaraq tez-tez baş verir. Burada günahı o tərəfdə, bu tərəfdə, kişi və ya qadında axtarmaq məsələnin sadə tərəfidir. Məsələnin əsas səbəbi daha dərindir. Biz bu cəmiyyətdə gündən-günə mürəkkəbləşən, həssaslaşan cəmiyyətdə elə bir humanitar, sosial siyasət həyata keçirməliyik ki, belə halların sayı az olsun. Burada insanlarda günah azdır. Çünki insanlar vəhşi deyil ki, mühit təsir etsin. Onlarda ətrafda baş verənlər təsir edir".

# nahkar ailələrdir?

"Hər bir insanın davranışına təsir edən 4 mühüm amil var:

1- insanın öz xisləti, öz daxili aləmi, psixologiyası

2 - mühit

3 - aldığı informasiyalar

4 - üstünlük verdiyi dəyərlər".

"Biz cəmiyyətdə elə bir sosial siyasət həyata keçirməliyik ki, bu 4 faktordan istifadə edərək, əhalinin davranışı daha arzuolunan səviyyədə olsun. Amma bu işlərlə təəssüf ki, lazımi səviyyədə məşğul olan yoxdur və bununla bir adam məşğul ola bilməz. Bununla məşğul olmaq üçün xüsusi elmi mərkəz lazımdır, heç çox adam lazım deyil, 10 nəfər bəs edər. O elmi mərkəzdə bu işlər dərindən təhlil olunmalı, araşdırılmalıdır və həmin 4 faktorun kombinasiyasından istifadə etmək lazımdır ki, davranış bu şəkildə olmasın. Birinci faktor Azərbaycan xalqı öz daxili etibarilə, qəlbi etibarilə, ruhu etibarilə çox yaxşı, ahəngdar bir xalqdır, vəhşi xalq deyil. Deməli, bu faktorun biri bizim ümumi işin xeyrinədir. İkincisi bu mühit elə olmalıdır ki, burada insanlar sağda solda görsünlər ki, ailə dəyəri nədir, ailəyə münasibət necədir".

"Mən sizə deyim ki, 50 il bundan qabaq indikindən yaxşı idi. Onda ailəyə qarşı ictimai rəy var idi. Ər də arvad da bilirdi ki, onun ailə qarşısında borcu nədir. İslam dini camaata indikindən yaxşı təsir edirdi, deyirdi ki, insanların ailə qarşısında borcu var. İnsanlar informasiyanı əsasən əxlaqi mənəvi dəyərlər aşılayan bədii ədəbiyyatdan, kinodan, televiziyalardan alırdı. İnsanların üstünlük verdiyi dəyərlər o vaxtı daha çox mənəvi dəyərlər idi. İndi bu hadisələr ona görə baş verir ki, mənəvi dəyərlər sıxışdırılır, axşama kimi televiziyada müxtəlif teleseriallar, müxtəlif verilişlər ailədaxili münasibətlərin gərginləşməsinə daha çox səbəb olur. Ona görə bu məsələlər mən sosioloq üçün çox ürək ağrıdıcıdır. Mən, nə etmək lazım olduğunu 20 ildir deyirəm. Mənim təkliflər paketim var. Nə vaxt lazımdı mən bu təkliflər paketini təqdim etməyə hazıram. Əgər bu məsələlər tapşırılsa, layihə hazırlayıb məmnuniyyətlə təqdim edərəm. Demək olar ki, mən belə bir təkliflər paketi hazırlamışam. Bununla bağlı mətbuatda da çıxışlarım olur. Dəyişməyəcəksə, bundan da qat-qat pis olacaq. Günahı insanlarda yox, sosial siyasətdə, mühitdə, informasiyada, üstünlük verilən dəyərlərdə axtarmaq lazımdır".

**Psixoloq Mahuxanım Teymurova** isə fikirlərini belə ifadə edib: "Oğlunu tərbiyə edə bilməyən qadın, oğlunu adam edə biləcək qız axtarır... Burada qadının qadına şiddəti və zülmü başlayır". Yenə bir ailədaxili münaqişə, yenə



dünyasını dəyişən qadın və körpə, yenə dağılan 1 ailə, yenə 1 cinayət..... Məsələyə baxdığımız zaman ilk olaraq günahkarın kim olduğunu axtarırıq və birilərini günahlandırırıq. Halbuki günahkarı axtarmaq yerinə, bu hadisələrin niyə baş verdiyini, niyə hər dəfə bu dünyadan ailədaxili münaqişəyə görə, kişilər tərəfindən 1,2,3.. canın getdiyini soruşmuruq? Əsas bu hadisələrin niyə baş verdiyini, niyə hər gün bir qadının öldüyünü, niyə evində fiziki və psixoloji şiddətə uğradığını soruşmuruq???

Bizləri bu vəziyyətə gətirən əsas səbəb - "Cəmiyyətin mental düşüncələr və qoyduğumuz damğalardır". Kişi güclü olmalıdı, sözünü deməlidi, yumruğunu stola vurmalıdı.....Qadın səssiz olmalıdı, nə deyirlər onu etməlidir, ailə həyatında hansısa fiziki ya da psixoloji şiddətə məruz qalırsa ,o ailədə qalmalıdır... Bu düşüncələri bizlər yaradırıq. Bizlər edirik. Hətta bu düşüncələri uşaqlıqdan edirik. Oğlandır nə istəsə edə bilər... Kiməsə artıq söz dedisə: aaa uşaqla işiniz olmasın, deyir, desin... Mənim oğlum güclüdü... Qız susmalıdı... Qardaşın nə deyir o düzdü... Qız fikrin deməməlidir... Artıq hərəkət etməməlidir... Sən qız uşağısan, çox oynama... Onu etmə, bunu etmə... kimi düşüncələrimizi uşaqlarımıza deyərək, hiss etdirərək onları böyüdürük.

Oğlan güclü, ağlamayan, qadına sözünü keçirən, öz sözünü deyən biri olmalıdır. Əgər belə olmasa insanlar, həmin insanın qarşısında durur və sən necə kişisən? Necə oğlansan? Heç kişi adam ağlayar? Heç kişi adam qadının sözünü dinləyər? kimi ifadələr deyərək həmin insanı alçaldırıq və "mən zəifəm"-i bəlli etməmək üçün özünü güclü biriymiş kimi göstərir. Əsas da kişilər psixoloji nöqtədən zəif olduqlarını gizləmək üçün, fiziki güclərindən istifadə edirlər. İnsanlara sübut etməyə çalışırlar ki, mən zəif deyiləm. Halbuki o, "mən zəifəm" təməl inancına inanır və onu qorumaq üçün özünə sərhəd çəkir. "Mən bunları bunları etməliyəm və yaxud da etməməliyəm" deyir... "Mən ağlamamalıyam" Niyə? Çünki ağlayan bir kişinin zəif biri olduğuna inanır... Çünki ona bunu öyrədiblər. Halbuki istər kişi olsun, istər qadın hamı ağlaya bilər... Ağlamaq da duyğudur... Necə xoşbəxt oluruqsa, eləcə də ağlaya bilərik...

Qadınlar isə səssiz qalmağı öyrəniblər. Qadınların, uşaqların ölmələrinin əsas səbəblərindən biri onlara qayıdacaq bir evlərinin olmamasını hiss etdirmələridir. Çox ailədə bu problem var. Qız əgər ailə həyatı qurubsa və o ailə həyatında fiziki, psixoloji şiddətə məruz qalırsa, dizin qırıb oturmalıdır...Ona qayıdacaq bir evinin olmamasını hiss etdirirlər və yaxud deyirlər. Niyə?

Çünki cəmiyyətin nə deyəcəyini, həmin qıza nə damğa qoyacaqlarını, onun haqqında nələr danışacaqlarını düşünürlər. Azərbaycan xalqının çoxu həyatı özləri üçün deyil, başqaların düşüncələrinə görə yaşayırlar..Əlbəttə ki, buna yaşamaq demək olarsa...

Əsas suala gəlsək, "Niyə ailə içi şiddət olur? Səbəbləri nələrdir?" Ailədaxili münaqişənin biyoloji, psixoloji və sosial səbəbləri var. Bioloji səbəbi-kişi hormonlarının təsiri, şizofreniya, paranoid şizofreniya kimi bəzi ruhi xəstəliklər və antisosial şəxsiyyət pozğunluğu kimi bəzi ruhi xəstəliklər daxildir.

Psixoloji səbəbi - adam hakim olmaq, qadınları sıxışdırmaq, çatışmazlıqlarını ört-basdır etmək və gücünü qəbul etdirmək üçün şiddət tətbiq etməyə başlayır. Şiddətdən istifadə etdiyi an, kişinin ən zəif olduğu vaxtdır. Yəni zəif və bacarıqsız kişilər zorakılığa əl atırlar. Sosial səbəb - şiddət, öyrənilən bir davranışdı. Bunu ailəsindən, ətrafından öyrənir və tətbiq edir. Uşaqların şiddətlə bağlı olan kinolara baxması,oyunların oynanılması düzgün deyil. Çünki şiddətə baş vuracaq... Bizim məqsədimiz sonlandırmaq olmalıdır. Bunun üçün də uşaqlarımıza düzgün tərbiyə verməliyik. Hər şeyin başlanğıcı uşaqlıqdadır.

Məsələ ilə bağlı şəhər sakinləri arasında sorğu keçirərək onların da fikirlərini öyrəndik:

**Şəhər sakini Minarə Hacıyeva:** "Dünyada geniş yayılmış bir mövzuya çevrilən və bütün cəmiyyətlərə dərin təsir göstərən qadınlara qarşı zorakılıq, xüsusən də son vaxtlarda ölkəmizdə tez-tez gündəmdədir. Zorakılıq dedikdə ağla gələn ilk şey, şübhəsiz ki, fiziki güc istifadəsinə əsaslanan qəddar qüvvədir, amma əslində şiddəti yalnız fiziki ölçüdə azaltmaq mümkün deyil. Fərdlərin zorakılığa meylliliyi ümumiyyətlə bütün cəmiyyətin bir məsələsidir. Qadına yönəlik şiddətdə kişinin təhsil durumu və uşaqlıq dövründə ailəsindən fiziki və ya psixoloji şiddət görməsi onun gələcəkdə evlilik dönəmində həyat yoldaşına da şiddət tətbiq etməsi ilə nəticələnir. Uşaqların dünyasında valideynlər qəhrəman olurlar. Hər davranışların mənfi, ya da müsbət valideynlərindən nümunə götürürlər. Təəssüflər olsun ki, böyüklər ailədəki zorakılığı uşaqlıqdan öyrənirlər. Hər anlaşılmazlıqda cəzalandıran, hətta kiçik səhvləri də görməməzliyə vurmayan, cəza tətbiq edən, evdə daima ittiham və təhqirdən istifadə edən valideyn uşağın sonrakı illərdə də eyni təcrübələri tətbiq etməsinə səbəb olur. Başqa sözlə, uşaq insanlarla anlayış dilini yox, insanlarla zorakılıq dilini öyrənir. Bugünkü qanlı cinayətkarlar dünənin məsum uşaqlarıdır. Qadın istəmədən evində qatil böyüdür. Böyüdür ki, gələcəkdə 20 bıçaqla başqa bir qadını öldürsün. Özünü, öz uşaqlarının gələcəyini məhv etsin. Uşaq göz açandan anasına, bacısına və yaxud ailənin böyüklərinə, atasına hansı münasibəti görürsə, o münasibəti də həyatında tətbiq edir. Unutmamalıyıq ki, zorakılığın hər bir forması şəxsi məsələdir, məişət məsələsi kimi baxılmağı və səssiz olmağı tələb etmir. Heç bir səbəb canlıya qarşı şiddət tətbiq edilməsini bəhanə edə bilməz. Buna görə də qadınlara qarşı fərdi zorakılığın qarşısını almaq üçün ən qısa müddətdə bütün zəruri addımlar atılmalı, ölüm və ölümlə nəticələnə biləcək zorakılıq hallarına son qoyulmalıdır".

**Şəhər sakini Aytac Ali:** "Çox təəssüflər olsun ki, ölkə gündəmində belə bir xəbər var. Əslində günahkar ən birinci həmin xanımın əridir. Amma deyilənə görə, qız onunla nişanlı olan vaxtda da belə zorakılıq və şiddət halları baş verirmiş. Heç bir halda şiddətə dözmək, onu sevgi ilə kölgələmək olmaz. Belə olanda acı sonluq qaçınılmaz olur. Kaş ki bu cür hadisələrin sayı azalsa... Lakin çoxalmağa və getdikcə dəhşətli olmağa başlayır. Düşünürəm ki, artıq ailələr üçün yeni qayda və qanunlar tərtib edilməlidir. Düzü, burada insan ən başda özü məsuliyyətli olmalı, ya da valideynləri belə halların yaşanmaması üçün çalışmalıdır. Qızlarımız da artıq daha güclü olmağa, kimin nə dediyinə yox, öz həyatlarına və gələcəklərinə baxmalıdırlar. Bəlkə də vaxtında həmin xanım nişanı qaytarsa belə bir hadisə yaşanmazdı. Əgər yaşanıbsa bəlkə onlar üçün çox gecdir, amma bu taleyi yaşayan və şiddətə dözən insanlar üçün dərs olmalıdır".

**Şəhər sakini Aysel Məmmədova:** "Məncə, problem ilk olaraq kişidədir. İndi sual verərsiniz ki, "niyə kişidədir?". Ümumiyyətlə, qadınla kişi arasındakı problem uşağın gözləri qarşısında olmamalıdır. Çünki bu ilk növbədə uşağın psixologiyasına təsir edir. Uşağın psixologiyasına təsir edən halda isə cəmiyyətə normal fərd yetişdirmək mümkün deyil. Əgər biz cəmiyyətə sağlam fərd formalaşdırmaq istəyiriksə uşağın da "xəmiri"ni düzgün yoğurmalıyıq. Düşünürəm ki, dava olsa da, hansı situasiyadan asılı olmayaraq ana uşağı o yüksəkliyə çıxarmalı idi".

**Şəhər sakini Ziya Hikmətoğlu:** "Fikrimcə, ailədə həm fiziki, həm də psixoloji şiddət olduqda, insanlar son çarə kimi intiharı seçir. Amma mən belə düşünürəm ki, insanın düşünəcəyi ən son çıxış yolu intihardır. Azərbaycanda bildiyiniz kimi ailə qadın problemləri üzrə minlərlə qurumlar, polislərimiz var. O qadın o qurumlara müraciət edə bilərdi. Onlardan yardım ala, həm özünü, həm də körpəsinin həyatını xilas edə bilərdi. Mənim fikrimcə, burada günahkar kişidir. O, ailəsini düzgün anlasaydı, ailəsinə hörmətlə yanaşsaydı, bu olanlar baş verməzdi".

**Şəhər sakini Ülkər Xəlilli:** "Ana və uşağın ölümündə ata günahkardır. Məncə, belə insanlara müalicə və psixoloji dəstək lazımdır. Bunun qarşısını ancaq belə almaq olar. Evlənmədən öncə belə, yəni şiddətə meyilli insanlar psixoloqa görünüb yoxlanılmalıdır".

**Şəhər sakini Fidan Məmmədova:** "Bu məsələyə ilk növbədə aydınlıq gətirərək demək istəyərdim ki, cəmiyyətimizdə qadın hüquqları heçə sayılır. Qızlara evlərdə məsləhət verilir ki, "burada bizim sözümüz keçir, ailə quranda da yoldaşın nə dedi, o olacaq". Hər şey baxın, elə burdan, bu cür səhv tərbiyə metodundan başlayır. Niyə kişi nə dedi o olmalıdır? Qadın hissiz, duyğusuz dəmir parçasıdırmı alınıb satılsın, istənilən də şiddət görsün? Qadın güc göstərilmək üçün idman oyuncağı deyil. Onun da hüquqları, söz azadlığı var. Cəmiyyətimizdə bu cür vəhşiliklər məhz qadın hüquqlarının tanınmaması, tapdalanması üzündən baş verir. Buna əslində qadınlar özləri də şərait yaradır. Qızların ata ocağında təhsil alması, sözünü keçirdə bilməməsi, gözü bağlı, ancaq "sevirəm" deyib ailə qurması və başqa heçnəyi düşünməməsi, götür-qoy etməməsi bu cür qadın şiddətlərinə, zorakılıqlarına gətirib çıxarır. Ona görə bütün qadınlar öncədən sözünü deməyi bacarmalı, düzgün insan seçməlidir. Sevgi hər şeyi həll etmir. "Sevirəmsə dözməliyəm, hər dediyini etməliyəm" deyə bir cümlə absurtdur. Bunu qarşılıqlı olaraq kişi də düşünməli, kişi də əməl etməlidir. Bu amillər təkcə qadın üçün yaradılmayıb. Mən bütün zorakılıqların, qadın cinayətlərinin kökünü bunlarda görürəm".

*Ayşən Vəli*

# Qısqanclıq yoxsa inamsızlıq? - SORĞU

***Yəqin ki, hər birimiz həyatımızda bir dəfə də olsa bu əzablı qısqanclıq hissini yaşamışıq. Qısqanclıq müxtəlif olur və fərqli sahələrdə yaranır: sevgidə, dostluqda, övlad-valideyn münasibətlərində. Qısqanclığa ən çox ailə münasibətlərində rast gəlmək olar. Və bu hiss yavaş-yavaş təsir edən zəhər kimi vaxt keçdikcə ailəni tamamilə dağıtmaq iqtidarındadı. Ailə münasibətləri psixologiyasına əsasən, qısqanclıq kişi və qadın arasında olan münasibətlərdə yer alan şübhə hissidir. Bu məsələ ilə bağlı SİA paytaxt sakinlərinin fikirlərini öyrənməyə çalışıb.***





**Paytaxt sakini Çərkəz Sadıqov:** "Fikrimcə, qısqanclıq zəminində olan münaqişələrin əsas səbəbi ailələrin bir-birinə güvənməməsidir. Təbii ki, qısqanclıq zəminində olan hadisələrin çoxusu bildiyiniz kimi, içkili və yaxud da narkotik vasitənin təsiri altında olur. Bunun da nəticəsi olaraq qısqanclıq hadisələri yaranır, ailədə problemlər yaşanır və bəzən bu problemlərin və qısqanclığın nəticəsində ölüm hadisələri də olur".



**Paytaxt sakini Murad Adiloğlu**: "Qısqanclıq bəşəriyyət tarixindən qadınla kişilər arasında hər zaman olmuş bir hadisədir. Günümüzdə də bir çox ailələrin dağılması və yaxud sevgi münasibətlərinin dağılması qısqanclıq üzərində olub. Bir qadınla bir kişi sevgi yoluna çıxmazdan əvvəl bir-birlərini yaxşı tanımalı, bir-birlərinə güvənməli, dəstək olmalı və qarşılıqlı həm sevgi, həm də hörmət göstərməlidirlər. Cütlüklər sevgi münasibətində bacardıqları qədər səbrli və təmkinli olmalıdırlar".



**Paytaxt sakini Vüqar Qasımov:** "Fikrimcə, ailə və ya sevgi münasibətlərində qısqanclıq hissinin yaranması bir-birlərinə etibarsızlıqdan yaranır. Bir-birlərinə etibarları olarsa qısqanclıq da olmaz. Ailədə qadın və kişi bir-birlərinə inanmalıdır, güvənməlidir əgər ki, güvən və inam olmasa o zaman o ailənin sonu uçuruma doğru gedər. Ailədə bir-birinə qarşılıqlı hörmət eləməlidir, anlamalıdır və qərarlarına hörmətlə yanaşmalıdır".



**Paytaxt sakini Ülviyyə Yaqubova:** "Məncə, həm qadınlarda, həm də kişilərdə qısqanclıq halları normal dərəcədə olmalıdır. Qadınlarda bəzən kişini çox sevdikdə, ona çox bağlı olduqda qısqanclıq halları da çoxalır. Çox zaman qısqanclıq hallarının sonunda sevgi münasibətləri və ya ailə münasibətləri dağılmağa başlayır və bunun da nəticəsində bəzən ölüm hadisələri də baş verir. Fikrimcə, sevgi münasibətində bir birinə qarşılıqlı anlayış, hörmət olarsa o zaman qısqanclıq halları da az olar. Bəzən bəzi ailələrdə qısqanclıq nəticəsində boşanma halları baş verir və sonda o ailədə dünyaya gələn uşaqlarda da psixoloji problemlər baş verir".

**Paytaxt sakini İsgəndər Rzayev:** "Qısqanclıq xəstəlikdir, başdan xarablıqdır. Düzdü, qadınla kişi bir-birini qısqana bilər, amma sonda bu qısqanclığın sonu ölümlə bitməməlidir. Çox dərəcədə qısqanc olmaq artıq manyaklığın, psixoloji problemlərin göstəricisidir. Əgər cütlüklər bir-birlərini yaxşı anlayarsa, hörmətlə yanaşarlarsa o zaman qısqanclıq hadisələri də az olar. Son dövrlərdə statiskaya nəzər salsaq görərik ki, yeni ailə quran cütlüklərin bir çoxu qısqanclıq zəminində dağılıb və boşanmaların sayları günü-gündən çoxalıb".



**Paytaxt sakini Ayşən Vəli:** "Cütlüklər arasında qısqanclıq halları həmişə olub. Lakin, qısqanclığın da öz həddi və qədəri var. Həddindən artıq qısqanclıq xəstəlikdir. Düşünürəm ki, bu cür qısqanc insanlar psixoloji dəstək almalıdır. Bu dəstək onların həm münasibətdə, həm də sağlamlığı üçün lazımdır. Mən düşünürəm ki, iki insan arasındakı ən sağlam amil güvəndir. İki insan biri-birinə güvənirsə, inanırsa, ətrafdakıların mənfi rəylərini nəzərə almadan yoluna davam edirsə onlarda hər şey əla alınır. Məsələn, günümüzdə sevdiyi xanımın işinə, kariyerasına, geyiminə qarışam milyonlarla kişi var. Bu biraz da bizim mentalitetdən asılıdır. Lakin, mən qısqanclığı qəbul edə bilmirəm, daha doğrusu qısqanılmağı sevmirəm. İnsan qarşısındakı şəxsin bir fərd olduğunu dərk etməli, onun seçimlərinə, işinə, geyiminə hörmətlə yanaşmalıdır. Onunla empatiya qurmalıdır. Məsələn, günümüzdə kifayət qədər kişi var ki, xanımının telefonunu alıb yoxlamağı özündə haqq görür. Bu psixoloji şiddətdir. Ümumilikdə onu qeyd etmək istəyirəm ki, əgər iki insan xoşbəxt olmaq istəyirsə kənardan olunan müdaxilələrə imkan verməməlidir. Aralarında olan problemi heç kimi qatmadan özü həll etməlidir".



**Paytaxt sakini Adıgözəl Səlimov:** "Bu qısqanclıqdı, qarşılıqlı münasibətdi keçmişdə belə şeylər yox idi. Bizim dövrümüzdə də sevgi var idi, bir-birinə istək var idi. Amma qısqanclıq yox idi. Digər bir tərəfdən isə keçmişdə atamız, anamız bizlərə kimləri tövsiyə edirdisə, kimi bizə münasib bilirdisə bizdə onlarla ailə həyatı qururduq. Amma indiki zəmanədə görür ki, gənclik və sevgi çox dəyişilib. İndi yeni ailə quran cütlüklər heç bir şey olmamış boşanırlar soruşanda da ki, niyə boşanıb qısqanclıq üstündə, qarşılıqlı anlaşılmazlıq üstündə. Bəs evlənənlər niyə düşünmür ki, gələcəkdə sən onu sevməyəcəksənsə niyə evlənirsən. İnsan əsl sevgini dərk edəndən sonra evlənib, ailə olmağa tam hazır olmalıdır".





**Paytaxt sakini Sənan Abdullayev:** "Dünyanın yaranmasından, bizim eramızın 1-ci ilindən bu günə qədər yəni 2021-ci ilə qədər hər zaman qadınla kişilər arasında qısqanclıqlar olub. Ən çox da qısqanclığı ilk başladanlar qadınlar olur. Bəşər tarixindən bu günümüzə qədər görürük ki, qadınlar hər zaman sevdiyi kişiləri qısqanıb və onları sıxıb. Bunun da nəticəsi olaraq, kişilər artıq qısqanclığa görə sevdiyi qadınlardan bezir və yeni macəralara yelkən açırlar. Kişilərdə də qısqanclıq hadisələri olur. Qadınlara qarşı qısqanclığı bəhanə gətirərək sərt qaydalar tətbiq edirlər. Amma həm qadın, həm də kişilər bunu anlamalıdır ki, qısqanclıq sevgi münasibətində yaxşı şey deyil, tam əksinə sevgi münasibətini korlayan bəlkə də ilk səhvdir".

*Ziya Hikmətoğlu*

# Böyük Qayıdışın ədəbi və əbədi təntənəsi



*İsa HƏBİBBƏYLİ,*
*AMEA-nın vitse-prezidenti, akademik*

ŞƏRH

***Azərbaycan Respublikasının Prezidenti, Qalib Ali Baş Komandan kimi İlham Əliyevin qədim Azərbaycan torpağı olan Qarabağı erməni işğalından azad etməsi ölkəmizin çoxəsrlik tarixinin misilsiz və nadir tarixi hadisəsidir.Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilməkdə olan Böyük Qayıdış hərəkatının işığında Molla Pənah Vaqifin erməni qəsbkarları tərəfindən dağıdılmış məqbərəsinin əsaslı şəkildə yenidən qurulması ilə xalqımızla birlikdə Azərbaycan ədəbiyyatının, milli mədəniyyətimizin və ictimai fikrimizin də Qarabağa Böyük Qayıdışı hadisəsi baş verir.***

Cənab Prezidentimizin çox dəqiq şəkildə bəyan etdiyi kimi, ulu öndər Heydər Əliyev sovet dövründə Qarabağ xanının vəzirinin şərəfinə məqbərə ucaltmaqla fövqəladə bir qeyri-adi tarixi missiyanı həyata keçirmişdir. Hesab edirəm ki, Sovet hakimiyyətinin sərt dövründə ulu öndər Heydər Əliyevin Molla Pənah Vaqifin məqbərəsini Qarabağda ucaltması siyasi-tarixi mahiyyəti etibarilə Azərbaycan Sovet Respublikasının rəhbərinin Hüseyn Cavidin nəşinin Sibirdən Azərbaycana gətirməsi kimi təkraredilməz tarixi hadisədir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağın işğaldan azad olunması və Molla Pənah Vaqifin məqbərəsini yenidən Şuşa şəhərində əzəmətlə ucaldılması XXI əsrin əfsanəsidir. Qarabağın 30 ilə yaxın işğalından sonra düşməndən xilas edilməsi ölkəmizin sovet ideologiyasının məngənəsindən qurtarması qədər, hətta xeyli dərəcədə artıq çətin, məsuliyyətli və şərəfli xidmət işidir. Azərbaycan Respublikasını inkişaf etdirərək möhkəmləndirmək, Qarabağı 30 ilə yaxın işğalından sonra azad etmək və Molla Pənah Vaqifin məqbərəsini yenidən möhtəşəm şəkildə ucaltmaq XXI əsrdə əfsanələrin həyata keçirilməsinin mümkünlüyünün isbat olunması deməkdir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev XXI əsrdə əfsanələri gerçəkləşdirən qüdrətli dövlət xadimidir. Sovet hakimiyyəti illərində ulu öndər Heydər Əliyevin çoxmillətli tərkibə malik olan Qarabağın dağlıq hissəsində, Şuşa şəhərində Molla Pənah Vaqifə ucaltdığı əzəmətli məqbərə möhtəşəm azərbaycançılıq abidəsidir. Prezident İlham Əliyevin müstəqillik dövründə ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış Molla Pənah Vaqifin məqbərəsini böyük memarlıq əsəri kimi Şuşa şəhərində bərpa etməsi işğaldan azad edilmiş Qarabağ torpağının Azərbaycan möhürüdür.

Molla Pənah Vaqifin ölməz sənəti əbədi olduğu kimi, Molla Pənah Vaqifə Şuşada ucaldılmış məqbərə də azərbaycanlıların özlərinin doğma torpaqlarına əbədi qayıdışının rəmzidir. Molla Pənah Vaqifin yenidən ucaldılmış məqbərəsi möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirməkdə olan Böyük Qayıdışın dönməzliyinin paroludur. Molla Pənah Vaqifin məqbərəsi Azərbaycan ədəbiyyatı və incəsənətinin əsas beşiyi və mühüm inkişaf mərkəzlərindən olan Qarabağda ucaldılmış ədəbiyyat heykəlidir. Dünyanın heç bir ölkəsində ədəbiyyata və incəsənətə Molla Pənah Vaqifin məqbərəsi səviyyəsində böyük sənət abidəsi ucaldılmamışdır.

Vaqif Poeziya Günləri - Azərbaycan ədəbiyyatı və mədəniyyəti böyük hesabat və təntənəsidir. Vaqif Poeziya Günləri - ədəbiyyatın və incəsənətin, Qarabağın daha böyük inkişafa və parlaq gələcəyə çağırışlarının şeir dili ilə ifadə olunmuş direktivləridir. Böyük Qayıdış ilinin Vaqif Poeziya Günləri yalnız mühüm ədəbiyyat tədbiri olmayıb, həm də mühüm ictimai-siyasi hadisədir. Dahi Üzeyir Hacıbəylinin, xan qızı Natəvanın, məşhur xanəndə Bülbülün güllələbaran edilmiş heykəllərinin 30 ildən sonra yenidən Şuşaya, öz əzəli yerlərinə qaytarılması Azərbaycan xalqının və onun liderinin məğlubedilməzliyinin rəmzidir.

Bu il Cıdır düzündə Qalib Ali Baş Komandan İlham Əliyev tərəfindən Novruz tonqalının alovlandırılması milli-mənəvi dəyərlərimizin, Azıx mağarasına yol açılması qədim tariximizin, Molla Pənah Vaqifin məqbərəsinə Şuşa şəhərində yeni həyat verilməsi isə zəngin ədəbiyyatımızın və incəsənətimizin xalqımıza Böyük Qayıdışının əfsanəsi yox, gerçək reallığıdır. Nizami Gəncəvi ilində Şuşa şəhərində Molla Pənah Vaqif Poeziyası Günlərinin keçirilməsi ölkəmizdə müdrik sözə, böyük sənətə və qüdrətli sənətkarlara dövlət səviyyəsində göstərilən böyük qayğının növbəti əməli təntənəsidir. Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatında Məhəmməd Füzulidən sonrakı və Mirzə Fətəli Axundovdan əvvəlki dövrün ən böyük sənət zirvəsidir. Erkən realizmin banisi olan, yeni realist şeir məktəbi yaradan Molla Pənah Vaqifin heca vəzni üstündə köklənmiş zəngin yaradıcılığı Qarabağın timsalında geniş mənada Azərbaycanın "abu-həyatı"nın poeziyasıdır. Azərbaycan ədəbiyyatında ümumi şəkildə tərənnüm olunan Vətən və doğma torpaq anlayışlarına Molla Pənah Vaqif xalq həyatı və ölkə coğrafiyası səviyyəsində həyatilik və konkretlik gətirmişdir. Azərbaycan yaradıcı ziyalılarının Molla Pənah Vaqifin məqbərəsi önündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında birləşməsi ölkəmizdə formalaşmış möhtəşəm Birliyin canlı təcəssümüdür. Vaqif Poeziya Günləri - Qarabağa Böyük Qayıdışın möhtəşəm başlanğıcı, mühüm start nöqtəsidir.

# "Azərbaycan Fransa mətbuatında"

***Azərbaycan Dövlət Teleqraf Agentliyinin-AzərTAc-ın Fransa Respublikası üzrə xüsusi müxbiri kimi on beş il Parisdə fəaliyyət göstərmiş, filologiya üzrə fəlsəfə doktoru Əsgər Əliyevin yaradıcılığında Azərbaycan- Fransa ədəbi əlaqələrinin tədqiqi mühüm yer tutur. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 6 iyul 2021-ci il tarixli qərarı ilə "Elm və təhsil" nəşriyyatında çapdan buraxılmış "Azərbaycan Fransa mətbuatında" kitabı müəllifin ölkələrimiz arasında tarixi əlaqələrin və araşdırmaların yeni səhifələrini təşkil edir.***




Kitab AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəylinin "Ədəbi əlaqələrimizə əhəmiyyətli əlavə" adlı ön sözü ilə açılır. Burada xüsusilə qeyd edilir ki, Əsgər Əliyevin " Azərbaycan Fransa mətbuatında" kitabı ədəbi əlaqələrimizin naməlum qatlarının açılması, Azərbaycan siyasi mühacirətinin Avropa həyatının az öyrənilmiş səhifələrinin işıqlandırılması sahəsində irəliyə doğru atılmış mühüm addımdır. Təqdim olunan araşdırmalar indiyədək aparılmış tədqiqatların tamamlanması, yaxud zənginləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

### Kitabda "Fədakar istiqlalçı Miryaqub Mehdiyev və onun fransızca əsərləri haqqında qeydlər", "Fransız şərqşünası: Lüsyən Buva

Azərbaycan ədəbiyyatı haqqında", "Lüsyən Buva və Azərbaycan mətbuatı", "Ceyhun Hacıbəylinin bir məqaləsi", "Ceyhun Hacıbəylinin Azərbaycan sevdası", "Ceyhun Hacıbəyli: İlk Müsəlman Respublikası" məqalələri yeni tədqiqatlar baxımından xüsusilə diqqəti cəlb edir. Müəllif məqaləsində Vətənimizin müstəqilliyi uğrunda fədakar istiqlalçı Miryaqub Mehdiyevin həyat və fəaliyyətini geniş surətdə tədqiq etmişdir. Onun Əlimərdan bəy Topçubaşovun rəhbərliyi altında Paris Sülh Konfransında iştirak etmək üçün Azərbaycan nümayəndə heyətinin tərkibində Fransaya getməsi, "Azərbaycan Beynəlmiləl siyasətində petrol" və "Beynəlxalq vəziyyət və sovetlərdə milliyyət məsələsi" əsərlərini çap etməsi, Parisdə fransız dilində nəşr olunan "Prometey" jurnalında neft, milli məsələ, Azərbaycanın görkəmli şair və yazıçılarına həsr etdiyi məqalələrdən bəhs etmişdir. M.Mehdiyev sonralar Türkiyəyə gedərək siyasi fəaliyyətini davam etdirmiş və orada ömrünün axırınadək yaşamışdır.

Müəllif Fransada çalışdığı illərdə arxivlər və kitabxanalarda apardığı axtarışlar sayəsində nadir sənədləri və materalları əldə etmiş, Azərbaycanın istiqlal mücahidlərinin Fransa həyatına dair çoxsaylı faktları və məlumatları, əlyazmaları və mətbu materialları üzə çıxarmış, onları tərcümə edərək apaşdırmışdır. Tədqiqatçı- alim ilk dəfə olaraq tanınmış fransız publisisti və tədqiqatçısı Lüsyən Buvanın Fransada məşhur "Müsəlman aləmi jurnalı"nda Azərbaycan ilə bağlı fəaliyyətini əsaslı şəkildə tədqiq etmişdir. Məqaləsində müəllif qeyd edir: "Lüsyən Buva Azərbaycan ədəbiyyatı tarixinin zənginliyini ortalığa çıxarmaq istiqamətində Yusif Vəzir Çəmənzəminlinin apardığı gərgin axtarışları yüksək qiymətləndirmiş, tədqiqatçının avropalı alimlərin Azərbaycan ədəbiyyatı tarixinə həsr etdiyi məqalələrdən və orijinal mənbələrdən istifadə nəticəsində Azərbaycan ədəbiyyatının həqiqi tarixinə dair samballı bir əsər ərsəyə gətirdiyini diqqətə çəkmişdir." "Lüsyən Buva və Azərbaycan" adlı məqalədə müəllif Fransa mətbuatı materialları əsasında elmi- tədqiqat aparmaqla Məhəmməd ağa Şahtaxtlının da həyat və fəaliyyətinin müəyyən səhifələrinin dəqiq və əhatəli şəkildə araşdırılmasına nail olmuşdur. Məqalədə oxuyuruq: "Həyatının 20 ilini Azərbaycan ədəbiyyatı və mətbuatı ilə bağlı nümunələri fransız oxucularına çatdırmaqda Lüsyən Buvanın fəaliyyəti təqdirəlayiqdir."

Kitabda "Ceyhun Hacıbəylinin bir məqaləsi"ndə "Qafqaz müsəlmanlarında təhsil" sərlövhəli məqalədən bəhs olunur. Məqalə "Dağıstani" imzası ilə çap edilmişdir. Müəllif yazır: " Məqalənin ruhu, yazı üslubu, toxunulan məsələ və nəhayət imza bu yazının məhz Ceyhun Hacıbəylinin qələminin məhsulu olmasını bir mənalı şəkildə təsdiq edir.

Yazının tam tərcüməsini verməzdən əvvəl bir mühüm məsələyə də toxunmaq istərdik. Məqalə "Qafqaz müsəlmanlarında təhsil" sərlövhəsi altında verilsə də, orada söhbət yalnız Azərbaycandakı təhsildən gedir."Fədakar azadlıq carçısı Ceyhun Hacıbəylinin " İlk müsəlman respublikası: Azərbaycan" adlı araşdırması onun böyük Vətən sevdasının ifadəsidir. Həmin məqalə 1906- ci ilin noyabr ayında Parisdə nəşrə başlayan"Müsəlman aləmi juranalı"nın ("Revne du monde musulman") 1918-ci ildə çapdan çıxan 36-cı nömrəsində dərc olunmuşdur. Məqaləni fransız dilindən tərcümə edən kitabın müəllifi Əsgər Əliyev qeyd edir: "C.Hacıbəylinin həyat və yaradıcılığından bəhs edən tədqiqatçılar bu məqalənin adını çəksələr də, onun nədən bəhs etməsi barədə fikir söyləməmişlər.

Məqalədəki faktlar azərbaycanlı oxucuların əksəriyyətinə məlum olsa da, ölkəmizin tarixi, orada baş verən hadisələr barədə fransızlara ətraflı məlumat vermək, onu tanıtmaq baxımından çox qiymətli əsər hesab edilə bilər."Beləliklə, müəllifin "Fransa mətbuatında Azərbaycan" kitabı həm Azərbaycan siyasi mühacirətinin yeni materallarla tamamlanması, tədqiqatların zənginləşməsi, həm də Fransa mətbuatında Azərbaycanla bağlı məsələlərin yeni səhifələrinin tədqiqatçılara çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Ölkələrimiz arasında ədəbi əlaqələrimizə elmi töhfələr verən, əməkdaşlığın inkişafı və davam etdirilməsində yeni araşdırmaları ilə kitabları ərsəyə gətirən müəllifə yeni yaradıcılıq uğurları arzulayırıq.

***Afət Sadıqoğlu***





# “Haqsız oturub, haqdan danışan” nankor satqınlar

## Əli Kərimli, Cəmil Həsənli və... kimi satqınların ”don kixotluğu” haraya kimi...

Ataların hər bir sözü yerində deyilib. Necə ki, bu gün özlərini ”müxalifətçi” adlandıran satqın, cinayətkarlar ”hazırın naziri olaraq” 30 il həll olunmayan torpaqlarımızı 44 gün ərzində dünyada görünməyən müharibəni qələbə ilə başa vurmasını həzm edə bilmirlər. ”Haqsız oturub, haqdan danışmaq” buna deyirlər. Bu gün belə nankorlar, satqınlar, cinayətkarlar çoxdur. Necə deyərlər, ağzını açanda bilirsən ki, səviyyəsi nə dərəcədir. Ən təəccüb doğuran isə, yerindən duran, Avropanın küçələrində sülənənlər özlərini ya ”hüquq müdafiəçisi”, ya da ”demokrat jurnalist” adlandırırlar və gecə-gündüz sosial şəbəkələrdən düşmürlər. Görünür, bəlkə də elə orada da gecələyirlər. Belə olmasaydı, ölkəmizdə hansı uğurlu nailiyyətlər eşidirlər, xüsusilə də dövlət başçımızın xalqı tərəfindən böyük məhəbbətlə əhatə olunduğunu, həmçinin, dünya dövlətlərinin Prezident İlham Əliyevin diplomatik xarici siyasətinə həsəd apardığını eşitdikcə sağalmaz virusa tutulan ”beşinci kolon”un erməniyə nökərçilik edən dələduz və satqınlar - Əli Kərimli, Sevinc Osmanqızı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Vidadi İskəndərli, Arif Məmmədov, Qurban Məmmədov və  bu kimi parazitlər qaşınmağa düşürlər. Bu kəslər o kəslərdir ki, Azərbaycanın çörəyini yeyib, suyunu içərək böyüyən, ərsəyə gələn, adam içinə girib özünü ”adam” sanmağa başlayan, sonradan isə bütün bunları unudaraq, yediyi çörək və içdiyi su qabına qudurğancasına şıllaq atıb aşıran nankorlar, satqınlar o qədərdir ki!

Bu, o fərdlərdir ki, xarici dövlətlərə müxtəlif yollar sayəsində həyasızlıq, şivənlik yolları ilə mühacirət edib öz ölkəsinə qarşı düşmən mövqeyi göstərsələr də, nəticədə, yaxşı cavablarını alırlar. Elə götürək Azərbaycanı vaxtilə Avropa Şurası və Parlament Assambleyasında təmsil edən sabiq deputat, müxalifətin ”Mat Tereza”sı Gültəkin Hacıbəyliyə qurumun binalarına və tədbirlərinə ömürlük giriş qadağası qoyulduqdan sonra yenə də danışması, hələ də özlərinə ”azərbaycanlı” demələri, həyasızlığın son həddidir buna deyirlər. Hansı ki, belələrinin hətta bu millətin adını daşımağa belə heç bir mənəvi haqları qalmayıb. Qalmayıb həm də ona görə ki, belə ”azərbaycanlıların” özlərini ”siyasi mühacir” olmalarına təkan verən erməniçilik sevdasızlarıdır. Bax, bu tükənməz erməni sevdası olan bu kəslər erməni deyilən bir bici nəslikökü bilinməzi azərbaycanlı deyilən bir qeyrətlidən daha artıq tutması, əslində, nə qədər mənəviyyatsız olduqlarını göstərirlər.

### Cinayətkarlar cəzadan yayına bilməz

Bu yerdə Dostoyevskinin cinayətkarla bağlı dediyi sözləri xatırlatmaq istərdim: ”Cinayəti törədib, onun cəzasından qaçmaq mümkündür. Amma o cinayətin qorxusundan çıxmaq əsla mümkün deyil”. Bəli, müxalifət bir daha bunu anlamalıdır ki, cinayətkarlar cəzadan yayına bilməz. Aydın məsələdir ki, istənilən siyasi qurumun və ya təşkilatın səmərəli fəaliyyəti üçün ideologiya mütləq lazımdır. Çünki ideologiya həmin təşkilatın əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirir, onun hansı amal uğrunda mübarizə apardığını ortaya qoyur. Ancaq nə Müsavatın, nə AXCP-nin, nə digərlərinin konkret ideologiyası olmadığı üçün hər biri ayrı-ayrılıqda başlarından böyük layiq olmadıqları istəklərdə idilər. Çünki onların əsas ideologiyası satqınlıqdır. Baxın, Müsavat Dağlıq Qarabağı ermənilərə ”bağışlayan” sənədə imza atıb, AXCP hələ çoxdan torpaqlarımızı 2000 dollara satıb - yəni bütün bunlar ictimaiyyətin diqqətindən və yaddaşından çıxmayıb.

Elə götürək ”Milli Şura”nın ”vahid namizədi” Rüstəm İbrahimbəyovu. O, həyatının böyük bir hissəsini Azərbaycandan kənarda yaşayıb və düşüncəsi də, mentaliteti də yadlaşıb və heç bir zaman Azərbaycan xalqını anlaya bilməyəcək. Eyni zamanda, Rüstəm İbrahimbəyovun iddialarının Azərbaycan xalqının milli maraqlarından irəlidə durması onun siyasi perspektivinin üzərində qalın xətt çəkir. Xalqın yaddaşındadır ki, 2008-ci ildən sonra qoca rejissor siyasi ambisiyalarını ortaya qoymağa başladı və bu da ermənilərin dəstəyilə reallaşdı. Rəhbəri olduğu AKİ-nin bütün resurslarını istismar edən, dövlət torpaqlarını zəbt edən, vergidən yayınan qoca rejissor şantaj vasitəsilə Şəhidlər Xiyabanını da restoranlar şəbəkəsinə çevirmək niyyətində idi. Amma ictimaiyyətin kəskin reaksiyası və milli hakimiyyətin qəti mövqeyi Rüstəm İbrahimbəyovun ermənilərlə birgə planının qarşısı alındı.

Yaxud da, İsa Qəmbər, Əli Kərimli, Rəsul Quliyev də anti-milli fəaliyyətilə xalqın yaddaşındadır. Adları çəkilən və yaxud çəkilməyən anti-milli ünsürlərin xəyanətkar əməlləri haqqında geniş danışmağa ehtiyac da yoxdur. Çünki onlar bunu hər danışıqlarında və addımlarında isbatlayıblar. Və düşdükləri bu durumdan çıxmaq üçün başladılar dövləti, satqın, mənəviyyatsız Qənimət Zahid dediyi kimi, hakimiyyəti şərləməyə.

### Reallığı danmaq olmaz

Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Leyla Yunus, Xədicə İsmayıl, Qənimət Zahid, Sevinc Osmanqızı, Vidadi İskəndərli...kimi mənfurlar ölkəmizin beynəlxalq aləmdəki artan nüfuzundan qaşınmaya düşərək beynəlxalq aləmdə haqqımızda mənfi rəy formalaşdırmaq üçün min bir fitnə-fəsada əl atır, ağlagəlməz yalanlar, böhtanlar uydururlar. Bu ermənilərə haqq qazandıran bu vicdanı olmayan ermənipərəst qüvvələrin çirkli pulları və anti-Azərbaycan qüvvələrin tula payı alan bu mənfurlara Azərbaycanın o çörəyi haram olsun! Az qalıb, xalq, qanun qarşısında cəza çəkməyinizə. Bu xəyanətkarlar ermənilərə və onların havadarlarına xoş görünmək və gündəlik yeməklərini artırmaq naminə bütün bunlarda Azərbaycan hakimiyyətini günahlandırır, ”zavallı” ermənilərin heç bir günahı olmadığını iddia edirlər. Bu xəbis niyyətlərini sosial şəbəkələr vasitəsilə həyata keçirən satqınlara azərbaycanlı demək olarmı?

Bu gün dünya ictimaiyyəti, hətta Ermənistan dövlətinin üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı da işğalçı ölkəni müdafiə etmədi və haqqın tərəfində dayanaraq Azərbaycanın haqlı olduğunu bildirdi. Ancaq satqın və cinayətkarlar - əli kərimlilər, cəmil həsənlilər, vidadilər, sevinclər, ariflər...öz qan qardaşlarının - ermənilərin yanında olduqlarını açıq şəkildə bəyan etdilər. Ancaq bu satqın və şərəfsiz Əli Kərimli kimilər bilməlidir ki, bu gün Azərbaycan dövləti elə bir inkişaf səviyyəsinə çatıb ki, qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək mümkün deyil. Və bu gün sorosun tör-töküntüləri, çör-çöpləri isə əli kərimlilər, əli əliyevlər, cəmillər, sevinclər, qənimətlər kimi ünsürlər xalq tərəfindən tarixin zibil yeşiyinə atılanların tarix və zaman tələbi ilə xalqımızın və dövlətimizin mənafeyi, müqəddəs amallarımız, müqəddəs qanunlarımız qarşısında cavab verməli zamanıdır və Azərbaycan xalqı belə satqınları heç vaxt bağışlamayacaq.

**Rəfiqə HÜSEYNOVA**



# ”Reket jurnalistika” ilə məşğul olanların sonu yaxınlaşır

*Media eksperti açıqladı*

“KİV-dən reketlik məqsədilə istifadə edənlərə qarşı uzun müddət ərzində mübarizə aparılmasına baxmayaraq, təəssüf ki, bu cür hallar yenə də qalmaqda və çoxalmaqdadır. 2021-ci il ərzində də özünü ”jurnalist” adlandıran, əslində isə xuliqanlıq, dələduzluq halları ilə məşğul olan şəxslərin hüquq-mühafizə orqanları tərəfindən saxlanılmasının şahidi olduq. Hətta bunlar hədlərini o qədər aşıblar ki, sonda şəhid ailələrinə də əl uzatdılar, onlardan da qazanc götürmək istədilər. Yaxşı haldır ki, hüquq-mühafizə orqanları bu cür şəxslərə qarşı operativ reaksiya verirlər, onları zamanında zərərsizləşdirirlər. Təkcə 2021-ci ilin avqust ayı ərzində 3 nəfər bu cür şəxs saxlanılıb, cəzalandırılıb”. Bu sözləri SİA-ya açıqlamasında Mətbuat Şurasının sədr müavini, media eksperti Müşfiq Ələsgərli deyib.

Onun sözlərinə görə, KİV-dən reketlik məqsədilə istifadə hallarının, sui-istifadə hallarının çoxalmasının səbəblərinə gəlincə, bu səbəblər müxtəlifdir: ”Əsas səbəblərdən biri isə texnologiya ilə bağlıdır. İnternet bir texnologiya olaraq KİV-dən sui-istifadəyə münbit şərait yaradır. Yəni, internet üzərində dırnaqarası ”KİV qurumu” yaratmaq üçün heç bir ciddi prosedur yoxdur. Cüzi ödənişlə domen adı və hostinq alıb hansısa formatda KİV qurumu yaratmaq mümkündür. Xüsusən sosial şəbəkə platformaları bu cür neqativ niyyətlərin gerçəkləşdirilməsi üçün daha uyğundur. Sosial şəbəkə platformalarında hətta domen və hostinq üçün ödəniş etmək də lazım deyil. İstənilən şəxs özü üçün bir hesab açıb adını KİV qurumu qoya bilir. Aydın olsun deyim ki, burada söhbət hər hansı bir KİV qurumunun sosial şəbəkə platformalarındakı hesabından getmir. İndi fərqli bir təmayül yaranıb. Geniş yayılmış haldır ki, insanlar sosial şəbəkə platformalarında özlərinə hesab açırlar, onu KİV qurumu kimi təqdim edirlər. Bu hallar getdikcə geniş yayılır. Azərbaycanda sosial şəbəkələrin tənzimlənməsinin hüquqi bazası yoxdur. Hüquqi tənzimləmənin olmaması bu platformalarda KİV adından sui-istifadə hallarını stimullaşdırır.

Yaxşı haldır ki, indi Azərbaycanda ”Media haqqında” yenin qanun layihəsi hazırlanır. Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, MEDİA Agentliyinin kuratorluğu ilə yeni qanun layihəsi hazırlanaraq müvafiq qurumlara təqdim edilib, qanunun müzakirəsi və qəbul edilməsi gözlənilir. Yeni qanun media sahəsində yeni düzən yaradacaq. O cümlədən, onlayn media sferasını da tənzimləməyə şərait yaradacaq. Ümid edirik ki, yeni qanun layihəsinin qəbul edilməsindən sonra media sahəsində neqativ hallara qarşı daha səmərəli mübarizə aparmaq mümkün olacaq. KİV-dən reketlik məqsədilə istifadə edənlər də bunu yaxşı bilirlər. Bilirlər ki, ”Media haqqında” yeni qanunun qəbul edilməsi onların ömrünü kəsəcək. Ona görə də çox aktivləşiblər, istəyirlər ki, yeni qanun layihəsi qəbul edilənə qədər qısa müddətli olsa da, öz çirkin hərəkətlərini həyata keçirsinlər”.

***Ayşən Vəli***

# “Rus sülhməramlıları boşluqlara və məsuliyyətsizliyə yol verirlər”



“Rusiya Sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində istənilən tədbirlərin keçirilməsi Azərbaycan tərəfi ilə razılaşdırılmalıdır. Ora kənar ölkələrdən gələn heyət isə tamamilə buraxılmamalı və bunun buraxılması üçün də Azərbaycandan icazə alınmalıdır”. Bunu SİA-ya açıqlamasında hərbi ekspert Ədalət Verdiyev söyləyib.

Ədalət Verdiyev təəssüflə bildirib ki, artıq rus sülhməramlıları neçənci dəfədir ki, bu məsələlərdə boşluqlara və məsuliyyətsizliyə yol verirlər: ”Erməni deputatlarının 20 nəfərlik bir qrupunun ”Laçın dəhlizi”ni keçməklə separatçı rejimin ”müstəqillik günü”nün qeyd olunmasında iştirak etmək üçün Xankəndinə gəldiyi bildirilir. Məndə olan bəzi təsdiqlənməyən məlumatlara görə, Azərbaycan tərəfi bu fəaliyyətlərin qarşısının alınması üçün tədbirlər görür. Məsələn hazırda Xankəndidə mobil rabitənin basdırılmasına dair müəyyən siqnallar almışam, amma bu, heç də tədbirin keçirilməyəcəyi anlamına gəlməz. Bir necə gün öncə müdafiə naziri də təxribatlarla əlaqədar ordu birləşmələrinə lazımı göstərişləri verib. Separatçı rejimin ”müstəqillik gününün” qeyd etməsi tamamilə Azərbaycanın maraqlarına ziddir və bu, siyasi bir təxribatdır. Bu təxribatın qarşısının alınması üçün Azərbaycan əlində olan bütün güc imkan və vasitələrdən istifadə etməlidir. Zərurət yarandığı halda Azərbaycan ərazilərinə qanunsuz keçən erməni deputatların həbs olunması belə mümkündür. Çünki onlar gəlib bizim əsgərimizin düz burnunun ucundan Qafan-Gorus yolundan geri qayıdacaqlar, çünki başqa yol mövcud deyil. Əgər bunu biz indi etməsək, gələcəkdə də bu kimi təxribatlarla qarşılaşmağımız mümkündür”.

***Gülyana***

# “Xaricdəki müxalifətin ölkəmizlə bağlı xoşagəlməz planları baş tutmayacaq”

***"Azərbaycandan kənara gedib ölkəmiz haqqında xoşagəlməz fikirlər səsləndirmək düzgün hal deyil. Demək olar ki, bunların içərisində blogerlər də, özlərini siyasətçi elan edənlər də var. Onlar Azərbaycandan kənarda söyüş ritorikasından istifadə edirlər və Azərbaycan dövlətini aşağılamağa çalışırlar. Bu və ya digər formada Azərbaycanda insan hüquqlarının pozulmasından və digər məsələləri gündəmə gətirərək özlərində bir müxalifət imici formalaşdırmağa çalışırlar". Bunu Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə "Səs" qəzetinə açıqlamasında bildirib.***



Onun sözlərinə görə, xaricdə oturub Azərbaycan əleyhinə bəyanatlar səsləndirmək, adını siyasətçi qoymuş şəxsə heç vaxt başucalığı gətirməyəcək: ”Əgər ölkədə nə isə bir problem varsa və bu problemlərin həll olunmasını istəyirsinizsə, onda gəlin ölkəyə, burada sivil qaydada mübarizənizi aparın və sivil qaydada çatışmazlıqları deyin və çatışmazlıqların aradan qaldırılması üçün yolları göstərin. Əgər bunları edə bilmirsinizsə kənarda gedib danışmaq bu düşmən dəyirmanına su tökməkdən başqa bir şey deyil. Azərbaycan bu 44 günlük müharibədən sonra Qərb, Cənub və Şimaldan ciddi basqılara məruz qalır və haqsız olaraq Azərbaycanın üzərinə gəlinir. Belə bir dönəmdə Azərbaycan əleyhinə hər hansı bir kənara çıxacaq fikirlər səsləndirmək, bunu ictimailəşdirmək və beynəlxalq medianın gündəliyinə gətirmək, bu, artıq Azərbaycana düşmənçilikdən başqa bir şey deyil”.

A.Əlizadə bildirdi ki, qərəzli yol tutan müxalifətçilik heç bir halda qəbul oluna bilməz: ”Bu, birbaşa Azərbaycan dövlətinin uğurlarına kölgə salmaq istəyən düşmənlərə növbəti dəfə Azərbaycan əleyhinə təbliğat aparmaq imkanları verməkdir ki, bu da heç cürə qəbul olunan deyil. Demək olar ki, bu şəxslər onsuzda özlərini bitiriblər. Azərbaycan cəmiyyəti onsuz da kimin kim olduğunu çox yaxşı bilir. Xaricdəki müxalifətin ölkəmizlə bağlı xoşagəlməz planları baş tutmayacaq. Yəni 3-5 bu cür şəxslərin kənardan nə isə deməyi ilə Azərbaycanda ictimai siyasi mühitində nəyisə deyişmək mümkün deyil. Bir sözlə, kənardan bu cür şəxslərin ölkəmiz haqqında xoşagəlməz ifadələr işlətmələri gülüş mənbəyinə çevrilməkdədir”.

***Gülyana***

# Zatulin yenidən ermənilərə minnətçi düşüb

***Soçidəki Rusiya erməniləri birliyinin keçirdiyi görüşdə İrəvanda Lazarev klubunun qurucusu və lideri Konstantin Zatulinin çıxışı ilə tanış oldum. Deyim ki, məni ”riqqətə” gətirdi. Məncə, onun çıxışı Rusiya və Ermənistanın strateji birliyinin memarlığını sistematik olaraq yeniləmək məqsədini güdür.***

”Halal olsun, hər kimdisə, mənə ”at atı borca qaşır” məsəlini xatırlatdı. Nə isə, davamına baxaq.

Konstantin Fedoroviç Zatulin öz çıxışında ermənilərin Rusiya dövlətinin cənub sərhədlərində sabitliyə verdiyi tarixi marağı və böyük töhfəni özü ilə həmfikir olan insanlara inandırıcı şəkildə çatdıra bilib.

O, həmçinin fürsətdən istifadə edərək Ermənistan və Rusiyanın Qafqazdakı strateji milli maraqlarını, özünün erməni xalqına olan şəxsi sevgi münasibətini bir daha sübut etməyə çalışıb.

Deyim ki, Zatulin bəzi etirafları onun ”necə təmiz biri” olmasından xəbər verir. Məsələn, o deyir ki, bu gün bəziləri mənim mövqeyimi ermənipərəst kimi təqdim etməyə çalışır. Aldığım milyonlar və milyardlar haqqında sonsuz ”yalan” danışırlar. Zarafat edirlər ki, indi ”Qarabağ separatçıları” mənim Soçidəki bağımda toplaşırlar.

” amma, sizə and içirəm, ( deyəsən, burada bir balaca tərəddüd edir) mən özüm də elə buralarda doğulub böyüsəm də, amma burada nə evim, nə də bağım var. Erməni də deyiləm, amma ermənilərə ( onların mənə əta etdikləri bəxşişlərə) ”hörmətlə” yanaşıram. Ona görə də erməni xalqını sevən biri kimi, sizin baş naziriniz Nikol Paşinyana bir daha prezidentimiz Vladimir Putinlə görüşməyi məsləhət görürüm. O, Rusiyaya sonsuz olaraq müraciət edə bilər, (..Putinin ayağına düşüb ağlayıb-sızlaya da bilər) amma ətrafındakı insanlara başqa şey deməməlidir. Nə bilim, Rusiya bizi atdı, Rusiya bizə kömək etmədi, xoşbəxtliyimizi başqa yerdə axtarmalıyıq, daha nə bilim nələr  Belə lazım deyil. Bunu Nikola da başa salmaq lazımdır. O anlamalıdır ki, əgər belə davam edərsə, beş ildən sonra Rusiyanın Ermənistandakı təsirindən çox az şey qalacaq.



Məsəl var deyərlər, ”Bir ayının min oyunu bir armudun üstündədir”. Bu gün Zatulin üçün armud da ki, ”ermənilərin əli ilə” yenidən Rusiya Dövlət Dumasına deputat seçilməkdir. Məsələ bundadır ki, indi vəziyyət bir az qəlizləşib. Bu gün Soçidə birmandatlı seçki dairəsinin seçki komissiyasına 14 deputatlığa namizəd sənəd verərək deputat olmaq istəyir.

İndi Zatulin ”başıdaşlı” neyləsin? Əgər ermənilər həmişə olduğu kimi, bu dəfə də ”podderjka” verməsələr, batıb gedəcək

Yeri gəlmişkən bir daha xatırladaq ki, səkkizinci çağırış Rusiya Federal Məclisi Dövlət Dumasına deputatların seçkiləri 19 sentyabr 2021-ci ilə təyin edilib. Səsvermə sentyabrın 17-dən 19-dək üç gün ərzində baş tutacaq.

***Ağasəf Babayev***

# “Ruslara uydurma böyüklüyünü göstərməyin yolu...”

Moskva Rusiya-Ukrayna dövlət sərhədindəki ”Gukovo” və ”Donetsk” nəzarət -buraxılış məntəqələrində ATƏT-in Sərhəd Müşahidə Missiyasının mandatının uzadılmasını dəstəkləməyib.



Gürcüstanın milli təhlükəsizlik və Rusiya-Gürcüstan münasibətləri üzrə mütəxəssis Qoça Qvaramia bunun izahını ”Moskva genişmiqyaslı hərbi əməliyyatlara başlamağa hazırlaşır” kimi təqdim edir.

Qeyd edək ki, gürcü mütəxəssis Rusiyanın 2008 -ci ildə Gürcüstanda baş verən hadisələrin Ukraynada da təkrarına hazırlaşdığını istisna etmir. Onun sözlərinə görə, 2008 -ci ildə Gürcüstanda da belə oldu. Rusiya eyni şəkildə hər hansı bir beynəlxalq missiyanın müşahidəçilərinin hələ də ayrılma xətti adlandırılan xətdə olmayacaqları üçün bütün şəraiti yaratdı.

Gürcü mütəxəssis bildirir ki, 2008 -ci ildə sülhməramlıların rotasiyası adı altında Rusiya daha sonra silahlı qüvvələrini Tsxinvali bölgəsinin Yava bölgəsinə gətirdi və bundan sonra Gürcüstan polis postlarının mövqeləri intensiv atəşə tutulması başladı.

Gvaramia hesab edir ki, Rusiya hazırda mümkün qədər çox ərazini qoparmaq üçün Ukraynada da bənzər bir əməliyyat keçirməyə hazırlaşır. Gürcü mütəxəssisin fikrincə, bu gün Rusiya rəsmiləri dövləti başqa şəkildə necə idarə edəcəklərini bilmirlər. Ona görə də onlar hakimiyyətdə qalmaq, özlərinin ”yenilməzlik” və ”Rus dünyasının” uydurma böyüklüyünü göstərmək üçün mütləq müharibələr etməlidirlər. Çünki onların buna ehtiyacları var.

Xatırladaq ki, Rusiya sentyabrın 30 -dan sonra Ukrayna ilə sərhəddə ATƏT missiyasının mandatını yeniləməkdən imtina edib.

***Ağasəf Babayev***

# Vaksin növbələri yoluxmaya yol açır?

## *Həkim açıqladı*

***“Ümumiyyətlə, vaksinasiya prosesi və vaksinasiya prosesindən başqa hər hansı bir ictimai məkanda sosial məsafə gözlənilmədən, qoruyucu tədbirlərə riayət edilmədən kütləvi toplaşma həyata keçirilərsə bu zaman təbii ki, müəyyən komitələr vardır.***



Həmçinin, randevu sistemi fəaliyyət göstərir. İnsanlar vaksinasiya olunmadan öncə peyvənd üçün randevu götürməlidir”. Bu sözləri SİA-ya açıqlamasında deputat, həkim Müşfiq Məmmədli deyib.



Onun sözlərinə görə, randevu sistemi insanlar üçün də faydalıdır ki, onlar işlərini rahatlıqla planlaşdırırlar: ”Bununla yanaşı tibbi xidmətin göstərilməsi zamanı da daha rahat və əlçatan xidmətin təşkili çox önəmlidir. Biz bir neçə dəfə də təklif etmişdik ki, həm vaksinasiya məntəqələrinin sayının artırılması, həm səyyar vaksinasiyanın həyata keçirilməsi, həm də tibb müəssisələrindən kənar yerlərdə vaksinasiya olunması çox önəmlidir”.

Həkim sözlərinə belə davam edib: ”Bütün bunlar həm vaksinasiyanın sürətini artırır, həm də kütləvi yığışma və toplaşmaların qarşısını alır. İnsan sayı çox olduqda və əsas da bağlı məkan olduqda yoluxma sayı hər zaman artır”.

***Ayşən Vəli***

# Antimilli qüvvələr - erməni lobbisinə dəstək verənlər...



Prezident İlham Əliyev çıxışlarında dəfələrlə radikalların əsl simasını xalqımıza açıb göstərib. Ağır döyüşlər zamanı susan, müharibədən sonra Azərbaycanın igid əsgər və zabitlərinin canı, şəhidliyi hesabına əldə edilən uğurları, qələbəni aşağılamağa çalışan bu antimilli qüvvələr Ermənistanın məğlubiyyətini həzm edə bilmirlər. Çünki bu qələbə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılıb. Antimilli şurada təmsil olunan radikal ünsürlər müxtəlif üsul və vasitələrlə Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasətə kölgə salmağa çalışırlar. Radikallar hazırda Ali Baş Komandanın ictimai rəydə olduqca yüksək olan reytinqinə zərər vurmağa cəhdlər edirlər. Amma bütün bunlar mənasız cəhdlərdir. Çünki ölkə Prezidenti İlham Əliyev sözün həqiqi mənasında ordumuzun müzəffər Ali Baş Komandanı kimi tarix yazdı. Dövlət başçısı İlham Əliyev 44 günlük müharibədə möhtəşəm qələbə qazanmaqla böyük Sərkərdə, güclü Ali Baş Komandan, xalqın Lideri kimi Azərbaycanın tarixinə əbədi olaraq həkk olundu.

### "Biz bu tarixi unutmamışıq, gənc nəsil də bilməlidir"

Azərbaycan Prezidenti çıxışlarında dəfələrlə bildirib ki, Azərbaycan Xalq Cəbhəsi və bu gün onun antimilli şurada cəmləşən qalıqları faktiki olaraq Birinci Qarabağ müharibəsi dövründə fərarilik ediblər: "Biz bu tarixi unutmamışıq, gənc nəsil də bilməlidir. Müharibə gedə-gedə prezident öz vəzifəsini tərk edib, gedib dağ kəndində oturub. Müharibə gedir, insanlar ölür, torpaqlar əldən gedir, ölkənin prezidenti, Ali Baş Komandanı qaçır, gedir Naxçıvan Muxtar Respublikasının dağ kəndində oturur. Bu, fərarilik deyil, nədir? İndi bu antimilli şurada rəhbərlik edənlər, harada idiniz müharibə dövründə? Qaçıb gizlənmişdilər. İndi də qaçıb gizlənir, biri Amerikada oturub, oradan mühazirələr oxuyur və düşmənin dəyirmanına su tökür. Onu kim maliyyələşdirir? Kim ona istiqamət verir? Biz bilirik. Buradakılara kim istiqamət verir? Həmin qüvvələr. Ermənipərəst qüvvələr, müharibə dövründə bizə qarşı çirkin əməllərdə iştirak edənlər, bizim qələbəmizi əlimizdən almaq istəyənlər, ermənilərə dəstək verənlər antimilli şuranın havadarlarıdır və onlar fərarilərdir, satqındırlar, xaindirlər. Xalq da bunu bilməlidir və gənc nəsil də bilməlidir".

Dövlət başçısı onu da bildirib ki, bəzi hallarda gənc nəslə bu biabırçı tarix haqqında kifayət qədər məlumat verilmir: "Bu, orta məktəb, ali məktəb dərsliklərinə salınmalıdır. Bu qara səhifə dərsliklərə salınmalıdır. Gənc nəsil Şuşanı, Laçını, Xocalını, Kəlbəcəri satanları, fərarilik edənləri, torpaqlarımızın itirilməsinə imkan yaradanları tanımalıdır. Bu günə qədər orada-burada sülənir Şuşanı satan satqın. Onlar belə gətirdilər, faciə gətirdilər, günahsız insanların həlak olmasına şərait yaratdılar, insanları müdafiə etmədilər. Xalq Cəbhəsi-Müsavat hakimiyyəti qaçdı gizləndi, təslim oldu, biabır oldu. Ondan sonra otuz il ərzində elə bil ki, bunlar deyil bu torpaqları satanlar. Elə bil ki, bunlar deyil döyüş meydanından qaçanlar, bunlar deyil müharibə dövründə Gəncəni bombalayanlar, Azərbaycan əsgərini əsir götürənlər. Bunlardır. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır".

Qərbin qoltuğuna sığınan, ermənilərin yedəyində sürünən, dini radikalların əmmaməsində gizlənən Əli Kərimli kimilər...

Bəli, Azərbaycan xalqı və Azərbaycan gəncliyi antimilli şuranın xain, satqın missiyasını müharibə dövründə də görüb. Və Qərbin qoltuğuna sığınan, ermənilərin yedəyində sürünən, dini radikalların əmmaməsində gizlənən Əli Kərimli kimilərin satqınlığını unutmayıb, unutmayacaq da! "Bəyə, xana yaradı, keçəl qıza yaramadı" atalar məsəli bu gün özündən və ermənilərdən başqa hamıda, hər sahədə nöqsan axtaran müxalif düşərgənin radikal qanadına toplaşanlar, xüsusilə bu sahədə öndə gedən AXCP sədri Əli Kərimli üçün deyilib. Belə ki, Əli Kərimli təfəkküründə olan Sevinc Osmanqızı, Vidadi İsgəndərli, Qənimət Zahid, Xədicə İsmayıl, Gültəkin Hacıbəyli, Əli İnsanov kimi "sapı özümüzdən olan baltalar"ın gəzmədiyi və kəsmədiyi budaq qalmayıb. Azərbaycanı istəməyən qüvvələr tərəfindən maliyyələşdikləri üçün ölkəmizlə bağlı təxribat kampaniyalarının fəal iştirakçıları olan antimilli dairələr qaşınmayan yerdən qan çıxarmaq üçün dəridən-qabıqdan çıxırlar. Ağalarının əmrlərini kor-koranə yerinə yetirən bu bədbəxtlər, daha doğrusu, robotlar sağlam düşüncə tərzindən məhrum olduqları üçün manqurtlaşıblar. Satirik şairimiz Mirzə Ələkbər Sabirin təbirincə desək dinləri, imanları olan dollardır. Əksinə, şəhidlərimizin qanı bahasına qazanılan Qələbəmizə qara yaxaraq cəmiyyəti çaşdırmağa çalışırlar. Milli Ordumuzun döyüş təcrübəsinin digər ölkələrin hərbçiləri tərəfindən bəyənildiyi, öyrənildiyi bir məqamda əsgər və zabitlərimizin qanı-canı bahasına qazanılan uğurlarımızla bağlı böhtanlar söyləmək şərəfsizlik, satqınlıq, milli xəyanətdir.

Azərbaycan xalqı isə antimilli və xəyanətkar mövqedə olan bu marginal qruplaşmaya öz yerini çoxdan göstərib, onları tarixin tozlu arxivinə göndərib. Radikal ünsürlərin bu cür vasitələrlə siyasi reabilitasiya cəhdləri isə hər zaman olduğu kimi, iflasa məhkumdur!Həmçinin, bir həqiqəti də xainlər və xəyanətkarlar bilməlidirlər ki, əməllərinə görə yaxın zamanlarda cəzalarını çəkəcəklər. İstər Ə.Kərimlisi olsun, istərsə də işğalçı ölkənin Nikol Paşinyanı hər ikisi xalqları qarşısında cəzalarını çəkəcəklər. Özü də yaxın zamanlarda.

**Rəfiqə HÜSEYNOVA**

# Vicdanlarını qranta satan trol dəstəsi

***AXCP sədri Əli Kərimli tayfasının, "Milli Şura"nın "qovluq" sədri Cəmil Həsənlinin, Şuranın təmsilçilərindən Gültəkin Hacıbəylinin, Tofiq Yaqublunun, Müsavatın başqanı Arif Hacılının, xarici ölkələrdə hələ də nə axtardıqları bəlli olmayan Vidadi İsgəndərlinin, Qənimət Zahidin, Sevinc Osmanqızı kimi digərlərinin də Azərbaycanla bağlı sayıqlamaları keçinin suyu bulandırmasından başqa bir şey deyildir. Milli xəyanətkarlar yaxşı bilirlər ki, bu gün dünya siyasətinin əsas mövzusu İkinci Qarabağ müharibəsində Zəfər qazanan Azərbaycanın regionda yaratdığı yeni reallıqlar, ölkəmizin təşəbbüsü ilə şaxələnən qlobal enerji və nəqliyyat layihələrinin xəritəsini dəyişəcək yeniliklərdir.***



Bütün dünyanın heyrətlə izlədiyi 44 günlük Vətən müharibəsində Milli Ordumuzun döyüş təcrübəsinin ən qüdrətli ölkələrin ekspertləri tərəfindən təhlil olunması, hərbi məktəblərdə XXI əsrin döyüş təcrübəsi kimi öyrənilməsi Prezident, Ali Baş Komandan İlham Əliyevin "Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Hesab edirəm ki, yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi edirikse, dəqiqliklə edirik. Son dörd il ərzində üç əməliyyat keçirilmişdir, üç toqquşma olmuşdur. Üçündə də qalib gəldik. Üçündə də bayrağımızı istədiyimiz yerə sancdıq. Üçündə də düşmənə sarsıdıcı zərbələr endirdik"" tezisi qüdrətli Azərbaycanın işğalçı Ermənistana və onun havadarlarına və milli xəyanətkarlarımıza mesaj idi. Çox təəssüf ki, vicdanlarını qrantlara satan daxili düşmənlərimiz ölkəmizin siyasi, iqtisadi, hərbi sahədə qazandığı uğurları həzm edə bilmirlər. Xəyanətləri müqabilində ermənilərdən aldıqları tula payı ilə qulaqları kar, gözləri kor olan milli xəyanətkarlar deyəsən ana dillərini də unudublar. Vətən, torpaq təəssübü, el-oba həsrəti ilə bağlı müdriklərimizin hikmətli sözlərini unudan, dünya mətbuatında Azərbaycanla bağlı dərc olunan silsilə yazılara qısqanclıqla baxan "millilərimiz" həqiqətləri görmədikləri və yaxud görmək istəmədikləri kimi dərketmə qabiliyyətlərini də itiriblər. Xarici jurnalistlərə müsahibələrində işğaldan azad olunan ərazilərdə aparılan quruculuq işlərindən bəhs edən Prezident İlham Əliyevin açıqlamalarından heyrətlənən əcnəbilərdən fərqli olaraq dillərini, dinlərini, məzhəblərini erməniləşdirən, bizdən olub, özümüzə düşmən kəsilənlər hələ də qəflət yuxusundan ayılmayıblar. Hərdən fikirləşirsən ki, bəlkə elə onlar doğrudan da müdriklərimizin, klassiklərimizin, atalarımızın insanı haqqa, ədalətə çağıran, Vətənin müqəddəsliyini, vicdanın səsinə qulaq asmağın dəyərini bildirən hikmətli sözləri də unudublar. Buna da çarə tapılar,- dedik. Azərbaycan dilini unudub, ingilisləşən, almanlaşan, erməniləşən antimillilərə qoltuqlarına sığındıqları əzizlərinin, tanınmışlarının ədəb-ərkanından nümunə gətirməyi məsləhət bilik. Alman şairi, dramaturq İohan Kristof Fridrix Şiller vicdanlarını satanlar üçün deyib ki, şərəf həyatdan qiymətlidir. Həmin almanın digər həmvətəni, filosof Artur Şopenhauer isə daha irəli gedərək insanı şəxsiyyət kimi formalaşdıran şərəfi belə dəyərləndirib: "Şərəf daxili vicdan, vicdan isə daxili şərəfdir." Antimillilərin təxribatlarının məntiqi nəticəsi budur ki, xarici ölkələrdə başqalarının süfrələrinin artığı ilə gün keçirib sifarişlə özümüzə qara yaxanlara insanlığın, şəxsiyyətin möhürü olan, həyata bağlayan vicdan , şərəf məhfumu yaddır, ümumiyyətlə yoxdur. Əgər azacıq olsaydı torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarından keçən 3 mindən artıq şəhidimizin ruhuna hörmətsizlik edib, Vətən müharibəsindəki Zəfərimizi "razılaşdırılmış danışıqların nəticəsi" adlandırmazdılar. Milli satqınlarımıza məsləhət görərdik ki, əgər Qələbəmizə şübhələri varsa, 44 gün davam edən döyüş əməliyyatlarının məntiqi nəticəsi olan Hərbi Qənimətlər Parkındakı Ermənistanın "qüdrətli ordusunun" sınıq-salxaq, vaxtı ötmüş hərbi sursatlarını sosial şəbəkələrdən izləsinlər.

Dünyanın ən tanınmış şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində intensivləşən quruculuq işlərində iştirak üçün ölkəmizlə əməkdaşlığa maraqlı olduqları bir məqamda bizdən olub, özümüzə qənim kəsilənlər bu həqiqəti də görmək istəmirlər. Füzuli Beynəlxalq Aeroportunda sınaq uçuşları həyata keçirilir, Zəfər yolunun inşası tamamlanmaq üzrədir, işğaldan azad olunmuş şəhərlərin baş planlarına uyğun tikinti-abadlıq işləri sürətlənir, bərpa olunan bir neçə elektrik stansiyası artıq istifadəyə verilib. Amma hələ də bərpa işlərinə erməni gözü ilə baxan milli satqınlarımız bunlara da dodaq büzür, haylar kimi "çe" deyirlər. Unudurlar ki, paxıl adam heç vaxt qəm və qüssədən uzaq qala bilməz.

Ermənilərlə razılaşan, torpaqları bir güllə atmadan belə dayılarına peşkəş edən AXC-Müsavat cütlüyünün iqtidarsızlarının özlərinə xas olan "razılaşdırma ənənələrini" bu gün bütün Azərbaycan xalqının sevincinə səbəb olan Zəfərimiz haqqında dilə gətirməsi radikalların özlərinə məxsus xəyanət metodudur. Necə deyərlər, meymun baxar gücgüyə, adını qoyar özgəyə. Özlərinin yaratdıqları internet telekanallarına verdikləri müsahibələrində qaravəlli danışan "islahatçı" Əli Kərimli, VİP-çi Əli Əliyev , Müsavat başqanı Arif Hacılı, adını jurnalist qoyub jurnalistikadan bixəbər Sevinc Osmanqızı kimi başqaları da əvvəlki günahlarını, xəyanətlərini, ermənilərlə iş birliklərini yada salsalar bəlkə onda özlərini güzgüdə görə bilərlər. Əgər yaddaşlarında problem varsa Prezident İlham Əliyevin bu sözlərinə bir daha diqqət göstərsinlər: " Hər kəs bilir ki, Şuşa və Laçının işğala məruz qalması AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində baş vermişdir. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi, AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, nəyin bahasına olursa-olsun hakimiyyəti zəbt etməyə çalışırdı və onların nəzarəti altında olan bəzi qüvvələr, bəzi satqınlar Şuşanı demək olar ki, ermənilərə təhvil verdilər və Şuşa demək olar ki, müdafiə olunmadı. Şuşada olan bəzi silahlı dəstələr Şuşadan çıxdı və faktiki olaraq Şuşa ermənilərə təslim edildi. Məhz bunun nəticəsində Azərbaycanda hakimiyyət böhranı yaşandı və AXC-Müsavat cütlüyü bundan istifadə edib qanunsuz yollarla hakimiyyəti uzaqlaşdırıb, hərbi çevriliş törədib hakimiyyətə gəldi. Şuşa və Laçının işğal altına düşməsi sırf AXC-Müsavat cütlüyünün xəyanətidir, satqınlığıdır. Kəlbəcər rayonu işğal altına düşəndə artıq AXC-Müsavat cütlüyü öz çirkin məqsədlərinə çatmışdı, hakimiyyətdə idi. Təxminən bir ilə yaxın hakimiyyətdə idi. Kəlbəcər 1993-cü il aprel ayının əvvəlində işğal altına düşmüşdü və bunun da günahkarı AXC-Müsavat cütlüyüdür, AXC-Müsavat hakimiyyətidir. Onların xəyanətkar, satqın, antimilli hakimiyyəti Kəlbəcərin işğalını şərtləndirdi."

Kəlbəcəri, Şuşanı, Laçını ermənilərə təhvil verən, qacqın, didərgin köçü yaradanların əksinə olaraq ərazilərimizi işğaldan azad edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün Azərbaycan xalqının yurd həsrətinə son qoydu. Bütün Azərbaycan xalqının yaddaşında rəzillik, milli faciə illəri kimi qalan AXC-Müsavat cütlüyünün hakimiyyətində təmsil olunanların, Kəlbəcəri ermənilərə satmaqla Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında birbaşa coğrafi bağlantı yaradanların, xalq arasında etibarını itirmiş hakimiyyətlərini qorumaq üçün Gəncəni bombalayanların, Azərbaycan əsgərlərini əsir götürənlərin cinayətlərini, günahlarını pərdələmək üçün yalanlardan istifadə etmələri də rəzilliyin ifadəsidir.

**Xuraman İsmayılqızı**

# Revanşistlərin puç olan Şuşa xəyalı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti çərçivəsində hazırlanıb.*

Təhlil

### Prezident İlham Əliyev: "Ermənilər nə qədər çalışsalar da, yenə də Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər"

44 günlük müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Bu dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu, düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu, Ermənistan ordusu darmadağın edildi. Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi. Ermənistanın daxilindəki hazırkı biabırçı mənzərə və gərgin vəziyyət, Paşinyana qarşı artan etirazlar, bununla müqayisədə Ali Baş Komandan, Prezident İlham Əliyevin fəxrlə bəyannaməyə imza atması, Azərbaycan xalqının əhval-ruhiyyəsi, bayram sevinci kimin qalib, kimin isə məğlub olduğunu aydın şəkildə nümayiş etdirir.

Bir sözlə, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Sübut edildi ki, Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağla bağlı heç bir qərar qəbul edilə bilməz.

### "Gücümüz də var, iradəmiz də var, cəsarətimiz də var. Yumruq da yerindədir"

Bəli, Azərbaycan Prezidenti istər müsahibələrində, çıxışlarında, görüşlərində, istərsə də işğaldan azad olunmuş torpaqlara hər səfərində dönə-dönə bildirir ki, hər bir sahədə gücümüz də var, iradəmiz də var, cəsarətimiz də var. Yumruq da yerindədir: "Ermənistanda nə güc var, nə iradə var, nə hər hansı bir mənəvi haqq var ki, revanşist fikirlərlə yaşasın. Bu, onlar üçün özünəqəsddir. Bir daha demək istəyirəm, biz hələ ki, bu bəyanatları izləyirik. Ermənistanda həm iqtidar, həm də müxalifət, demək olar ki, siyasətlə məşğul olan bütün ünsürlər Şuşanın qaytarılması ilə bağlı, Hadrutun qaytarılması ilə bağlı fikirlər səsləndirirlər. Biz hələ ki, təmkin göstəririk. Amma odla oynamasınlar. Onlar bizim yumruğumuzu görüblər. Bu yumruq yerindədir. Heç kim bizim qabağımızda dura bilməz. Əgər biz zərrə qədər təhlükə görsək, - zərrə qədər, - onları dərhal məhv edəcəyik. Elə yerindəcə məhv edəcəyik. Onlar da bunu bilirlər. Gücümüz də var, iradəmiz də var, cəsarətimiz də var. Yumruq da yerindədir".

Bəli, Azərbaycan Prezidentinin verdiyi mesajlar təkcə Ermənistana deyil, həm də bu ölkənin havadarlarına ünvanlanmışdı. Ölkə başçısı tam əminliklə qeyd edir ki, Dağlıq Qarabağ problemi artıq geridə qalıb, münaqişəni alovlandırmaq cəhdləri tamamilə əbəsdir. Eyni zamanda, hazırda Qarabağda yaşayan ermənilərə statusun verilməsindən söhbət gedə bilməz, bu məsələ birdəfəlik bağlanıb. Digər tərəfdən, Ermənistandan hansısa təxribat olacağı təqdirdə, Azərbaycan "Dəmir yumruğu"nu yenidən işə salaraq, düşmənin dərsini verəcək. Zəngəzur dəhlizinin açılmasına gəlincə, ölkə başçısı regionu birləşdirəcək layihənin reallaşacağını, heç kimin ölkəmizin təşəbbüsünə mane ola bilməyəcəyini lazımı ünvanların diqqətinə çatdırmış oldu.

### "Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər"










Azərbaycan Prezidentinin Vaqif Poeziya Günlərinin açılış mərasimindəki çıxışında vurğuladığı məqamlar bu şəhərin hər bir azərbaycanlı üçün nə qədər dərin mənəvi əhəmiyyətə malik olduğunu göstərir. Dövlət başçısı çıxışlarında da Şuşanın Azərbaycan tarixində xüsusi yeri olan, Azərbaycan xalqı üçün son dərəcə müstəsna əhəmiyyət daşıyan bir şəhər olduğunu bildirdi və vurğuladı ki, işğaldan azad olunduqdan sonra Şuşada həyata keçirilən böyük quruculuq işləri bunu bir daha təsdiqləyir.

"İlk səfərim çərçivəsində Şuşanın bərpası ilə bağlı bütün lazımi göstərişlər verildi və yanvar ayından bu günə qədər - 7 ay ərzində artıq çox böyük işlər görülüb", - deyən dövlət başçısı qeyd etdi ki, bu Şuşaya beşinci səferidir və bildirdi ki, Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü: "Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa yol olacaq. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Yəni, Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi artıq bərpa edildi. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü bərpa edildi, dünən onun ikinci açılışı olmuşdur. Üç məsciddə təmir-bərpa işləri gedir. Yuxarı Gövhərağa məscidinin təmiri demək olar ki, bitmək üzrədir. Saatlı və Aşağı Gövhərağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verildi. Bu məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. Natəvan bulağı bərpa edildi, indi su gəlir. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular. Əgər bu, erməni şəhəri idisə, nə üçün siz bu bulaqları qurudursunuz? Ondan sonra "Xarıbülbül" oteli istifadəyə verildi, artıq may-iyun aylarında ilk qonaqlarını qəbul etdi və digər addımlar atıldı".

Şuşanın işğaldan azad olunması Vətən müharibəsində Azərbaycanın parlaq zəfərini tamamlayan tarixi hadisədir. Bu qələbə Azərbaycan Prezidentinin praqmatik siyasətinin, dövlət-xalq birliyinin, Azərbaycan hərbçilərinin şücaətinin məntiqi nəticəsidir. 30 ilə yaxın bir müddət ərzində ATƏT-in Minsk Qrupunun fəaliyyəti münaqişənin həlli üçün heç bir real zəmin yarada bilmədi. Lakin Azərbaycan Prezidentinin praqmatik siyasətinin, dövlət-xalq birliyinin, Azərbaycan hərbçilərinin şücaətinin nəticəsində öz torpaqlarını işğaldan azad olunmasına nail oldu. Bu gün Şuşanın kimə məxsus olduğunu təkcə tarixi faktlar təsdiq etmir, həm də bu gün aparılan genişmiqyaslı quruculuq işlərinin nəticələri sübut edir.

Azərbaycan Prezidentinin Vaqif Poeziya Günlərinin açılış mərasimindəki çıxışında vurğuladığı kimi: "Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu, həqiqətdir. Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik".

**RƏFİQƏ KAMALQIZI**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

4 sentyabr

# Yapon şahzadəsi Amerika yolçusu



Yaponiya İmperatoru Akihitonun böyük nəvəsi Şahzadə Mako, kral ailəsindən istefa edərək ABŞ-a köçən İngilis cütlüyü Şahzadə Harri və Düşes Meqhanı təqlid edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, Soylu olmayan nişanlısı Kei Komuro ilə evlənməyi və ABŞ-da məskunlaşmağı planlaşdırır.

Komuro bir müddətdir hüquq təhsili almaq üçün ABŞ-da olub. Yapon mediasında yayılan xəbərlərə görə, şahzadə evləndə saray qadınlarına verilən 1,2 milyon dollarlıq yardımını almayacaq. Ənənəvi evlilik mərasimləri də olmayacaq. Evlilik bütün adlardan və hüquqlardan imtina etmək deməkdir. ABŞ-da məskunlaşanda daha xoşbəxt olduğunu söyləyən Harry, bu qərar üçün kral hüquqlarını qurban verib.

*Ayşən Vəli*

# "Barselona"nın futbolçusu "Beşiktaş"a keçib




***"Barselona"nın yarımmüdafiəçisi Miralem Pyaniç İstanbulun "Beşiktaş" futbol klubuna transfer olunub. Bu barədə "Beşiktaş"ın rəsmi saytında məlumat verilib. Bosniyalı futbolçu mövsüm ərzində 2,75 milyon avro alacaq ki, bu da türk klubunun yarımmüdafiəçinin maaşının öhdəliklərinə götürdükləri bir hissəsidir.***

Bildirilir ki, "Beşiktaş" Pyaniçin kirayəsi üçün katalonlara heç nə ödəməyəcək. Yarımmqdafiəçinin illik qonorarı 10 milyon avro təşkil edir. "Barselona" ilə müqaviləsi 30 iyun 2024-cü ilə qədər imzalanıb. Ümumilikdə isə Pyaniçin satış transfer dəyəri 20 milyon avro olaraq qiymətləndirilir.

# Anomal hava şəraiti ilə bağlı - XƏBƏRDARLIQ!



***"Sentyabrın 2-si axşam saatlarından başlayaraq ölkə ərazisində hava şəraiti dəyişərək güclü şimal-qərb küləyi əsib. Küləyin maksimal sürəti bəzi rayonlarda 18-24 m/s, ayrı-ayrı yerlərdə isə 30 m/s, Bakıda və Abşeron yarımadasında isə 23 m/sdək güclənib". Bu sözləri SİA-ya açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya xidmətinin Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova deyib.***

Onun sözlərinə görə, güclü küləklə əlaqədar Neft Daşları stansiyasının məlumatlarına əsasən dalğanın hündürlüyü 3,6 metrə çatıb: "Bu gün də paytaxtda arabir güclənən şimal-qərb küləyi əsəcək, gecəyə doğru arabir güclənəcək. Axşam saatlarında yarımadanın bəzi yerlərində yağış yağacağı ehtimal olunur. Bölgələrdə günorta saatlarından başlayaraq şimal və qərb rayonlarında yağış yağacağı gözlənilir. Bəzi yerlərdə isə şimşək çaxacağı, arabir yağışın intensivləşəcəyi ehtimal olunur. Sentyabrın 4-ü gündüz saatlarından yağıntılar tədricən kəsiləcək".

*Arzu Qurbanzadə*

# Co Baydenin nəvəsi türk toyunda



ABŞ Prezidenti Co Baydenin nəvəsi Naomi Bayden türkiyəli investisiya mütəxəssisi və sənətçi Tulya Efenin İtaliyada keçirilən toyuna qatılıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, Efe və Livan əsilli isveçrəli iş adamı Tarek Şakarçinin Komo gölü sahilindəki nağıl toyu Avropa və ABŞ-dan olan iş dünyasını bir araya gətirib. Gizli Xidmətin agent keşikçiləri hər addımda Naomi Bayden və sevgilisini müşayiət edirdilər.

# Dondurma aparatı aldılar



Viktoria və aktyor David Beckham cütlüyü İngiltərədəki evləri üçün dondurma maşını alıblar. SİA xarici mətbuata istinadən xəbər verir ki, ABŞ-ın məşhur dondurma mağazası Vendy's-dən aldıqları maşın üçün 7 min lirə ödədilər.

Viktoria Beckham 20 ildir şirniyyat yemir. Onların oğlu Bruklin ABŞ-lı model Nikola Peltzlə evlənəcək. Evdə toy üçün verəcəyi dəvətdə bu maşından istifadə edəcəkləri düşünülür.

*Ayşən Vəli*

# Dünyanın ən gözəl sarayı



Qızıl nisbət nəzərə alınaraq İngiltərədə edilən bir araşdırmada "Topkapı Sarayı" dünyanın ən gözəl sarayı seçilib. SİA xarici mətbuata istinadən xəbər verir ki, Topkapı Sarayı, Kraliça II Yelizavetanın yaşadığı Buckingham Sarayı da daxil olmaqla dünyanın hər yerindən Schönbrunn, Alhambra və Neuschwanstein kimi məşhur sarayları geridə qoyaraq "Ən Gözəl Saray" adına layiq görülüb.

*Turqay Musayev*

# BAŞSAĞLIĞI

"Səs Media Qrup"un kollektivi iş yoldaşları Elçin Bayramlının

xalası Bahar xanımın

vəfatından kədərləndiyini bildirir, mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**